RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 189 (9068) ŞƏNBƏ, 3 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin global layihələri Avropanın enerji xəritəsini dəyişib

## Prezident Çernobbio forumundakı çıxışı ilə Azərbaycanın beynəlxalq nüfuzunu və rolunu bir daha dünyaya nümayiş etdirdi

**Azərbaycan-İtaliya strateji tərəfdaşlığı və çoxtərəfli münasibətləri getdikcə daha da şaxələnir. Prezident İlham Əliyevin İtaliya Prezidenti Sercio Mattarellanın dəvəti ilə bu ölkəyə işgüzar səfəri, aparılan danışıqlar, keçirilən mühüm görüşlərdə səslənən fikirlər də bunu bir daha təsdiqləmiş oldu.**

Ümumiyyətlə, İlham Əliyev 2005, 2008, 2014, 2015 və 2020-ci illərdə İtaliyaya rəsmi səfərlər edib. Budəfəki işgüzar səfərin məqsədi isə Prezidentin 2020-ci ilin fevralında İtaliyaya dövlət səfəri zamanı ölkələrimiz arasında çoxşaxəli strateji tərəfdaşlığın möhkəmləndirilməsinə dair imzalanmış Birgə Bəyannamənin icrası prosesində bir sıra istiqamətlər üzrə cari məsələlərin müzakirəsi, bu sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi və nəticələrə yönəlmiş sonrakı addımların müəyyən edilməsi idi.

### Güclü liderlərin, nüfuzlu şəxslərin müzakirə apardığı beyin mərkəzi

Bu səfər həm də iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünə təsadüf edirdi. Səfər çərçivəsində çox mühüm tarixi hadisələr yaşandı, Azərbaycanın İtaliyadakı səfirliyinin yeni binasının açılışı oldu və binada ilk tədbir İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi oldu.

Sentyabrın 2-də İlham Əliyevin xüsusi qonaq qismində İtaliyanın "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi" mövzusunda keçirilən 48-ci Beynəlxalq Çernobbio Forumunda iştirakı, eləcə də Prezidentin "Enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın rolu" mövzusunda çıxışı çox böyük marağa səbəb oldu.

1965-ci ildən fəaliyyət göstərən "The European House - Ambrosetti" İtaliyanın idarəetmə-məsləhət xidməti sahəsində aparıcı beyin mərkəzi hesab olunur. Mərkəz Avropa və onun hüdudlarından kənarda ofislərə və geniş tərəfdaşlıq şəbəkəsinə malikdir.

→ 4

# Heydər Əliyev zirvəsi

Həmin dövrdə Ermənistanın hərbi təcavüzü nəticəsində Naxçıvan blokadaya alınmış, muxtar respublikanın iqtisadi çətinlikləri çoxalmışdı. 1991-ci ilin dekabr ayından Naxçıvana təbii qazın verilməsi, 1992-ci ilin iyulundan isə elektrik enerjisinin ötürülməsi dayanmışdı. Nə Mütəllibov iqtidarı, nə də AXC-Müsavat cütlüyü muxtar respublikanın mövcud ağır vəziyyətini qismən də olsa yaxşılaşdırmaq üçün heç bir əməli tədbir görməyə maraqlı olmadılar. Belə bir vəziyyətdə Heydər Əliyevin siyasi liderlik keyfiyyətləri, Türkiyə və İranla yaratdığı əlaqələr blokada vəziyyətində olan muxtar respublikanın iqtisadi çətinliklərinin dəf olunmasında böyük rol oynadı. Həmin çətin dövrdə Ulu Öndərin Naxçıvan qarşısında digər tarixi xidməti isə muxtar respublikanın etibarlı müdafiəsinin təşkili oldu. Heydər Əliyev Naxçıvanı qorudu, burada mütərəqqi ordu quruculuğunu



həyata keçirdi. Hətta bütün Azərbaycan ərazisində ilk dəfə Naxçıvanda keçmiş sovet qoşunlarının bölmələrinin çıxarılmasına Heydər Əliyevin sayəsində nail olundu.

→ 5

# Azərbaycan Avropaya təbii qaz ixracını iki dəfə artırmağı planlaşdırır

## Prezident İlham Əliyev İtaliyanın Çernobbio şəhərində keçirilən beynəlxalq forumda çıxış edib və xarici kütləvi informasiya vasitələrinin suallarını cavablandırıb



Sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi" mövzusunda 48-ci Beynəlxalq Çernobbio Forumu başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanın, İtaliya Nazirlər Şurasının Sədri Mario Draqinin və "The European House - Ambrosetti" beyin mərkəzinin dəvəti ilə beynəlxalq forumda əsas qonaq qismində iştirak edib.

Dövlətimizin başçısı forumun plenar iclasında "Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu" mövzusunda çıxış edib.

Prezident İlham Əliyevi salamlayan iclasın moderatoru **Monika MAGGİONİ** dedi:

**- Tədbirin əvvəli çətin oldu, çünki biz Avropanın mərkəzində baş verən müharibə haqqında danışmalı olduq.**

→ 2

# Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın Çernobbio şəhərində Səudiyyə Ərəbistanının investisiya naziri ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində Səudiyyə Ərəbistanının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falih ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Xalid bin Əbdüləziz Əl-Falih Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarını və ərazilərimizin işğaldan azad edilməsi münasibətilə təbriklərini Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara və təbriklərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.

Nazir işğaldan azad edilən ərazilərimizdə hazırda bərpa-yenidənqurma işlərinin sürətlə həyata keçirilməsindən məmnunluğunu bildirdi.

Söhbət zamanı iqtisadi əlaqələrin inkişaf etdirilməsi, o cümlədən Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin bərpaolunan enerji sahəsində ölkəmizdə həyata keçirdiyi layihə, həmçinin enerji, xüsusilə neft-qaz sahəsində əməkdaşlıq barədə fikir mübadiləsi aparıldı. Bu ilin sonuna qədər Səudiyyə Ərəbistanının bir sıra şirkətlərinin və iş adamlarının işğaldan azad edilmiş ərazilərə səfəri barədə ilkin razılıq əldə olundu.

# Tərəfdaşlıq sərhəd tanımır

## Enerji sektorunda başlanan əməkdaşlıq Qarabağ və Şərqi Zəngəzura keçir

Azərbaycan və İtaliya arasında diplomatik münasibətlərin qurulmasından artıq 30 il keçir. Bu iki ölkənin əməkdaşlığı getdikcə genişlənir və müxtəlif sahələri əhatə edir. İtaliya bizim ticarət tərəfdaşlarımız sırasında ön yeri tutur. Elə bu ilin birinci yarısında ölkəmizdən ixracın az qala yarısını - 48,6 faizini İtaliyaya göndərilmiş məhsulların dəyəri təşkil edib. İdxalda da bu ölkənin özünəməxsus payı var.

Azərbaycan və İtaliya prezidentlərinin qarşılıqlı səfərləri ölkələrimiz arasında hərtərəfli münasibətlərin inkişafında mühüm əhəmiyyət kəsb edir. Bu səfərlər zamanı əldə olunmuş bütün razılaşmalar və imzalanmış sənədlər həyatda öz əksini tapır. Prezident İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə Romaya budəfəki səfəri isə Azərbaycan-İtaliya münasibətlərində yeni səhifələr açır.

Təsadüfi deyil ki, İtaliya Nazirlər Şurasının Sədri Mario Draqi bu səfərin ölkələrimizin ikitərəfli münasibətlərinin inkişafına töhfə verəcəyini bildirib, İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq səviyyəsində çox yaxşı əlaqələrin qurulduğunu və qarşılıqlı ticarət dövriyyəsinin davamlı surətdə artdığını, enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayıb.

→ 4

# 8 ayda 11 milyard dollarlıq ticarət dövriyyəsi

## Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri münasibətlərin daha da inkişafına müsbət impuls verəcək

Sentyabrın 1-2-də Prezident İlham Əliyevin İtaliya Prezidenti Sercio Mattarellanın dəvəti ilə bu ölkəyə işgüzar səfəri əlaqələrin daha da inkişafına müsbət impuls vermiş oldu. Dövlət başçısının İtaliyaya səfəri zamanı İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi də keçirildi. Bu da iki ölkə arasında əlaqələrin yeni səhifəsi kimi qiymətləndirilir. Dövlət başçısı vurğulayıb ki, təhsil sahəsində yeni genişmiqyaslı əməkdaşlığa başlayırıq: "İki il bundan əvvəl İtaliyada dövlət səfərində olarkən mən bu təkliflə çıxış etmişdim ki, İtaliya-Azərbaycan Universiteti yaradılsın. İtaliya rəhbərliyi də bunu alqışladı və qısa müddət ərzində artıq biz praktiki fəaliyyətə başlayırıq". Dövlət başçısı həmçinin vurğulayıb ki, bu universitet İtaliya-Azərbaycan dostluğu mərkəzi olacaq.

→ 4

# Azərbaycan Avropaya təbii qaz ixracını iki dəfə artırmağı planlaşdırır

## Prezident İlham Əliyev İtaliyanın Çernobbio şəhərində keçirilən beynəlxalq forumda çıxış edib və xarici kütləvi informasiya vasitələrinin suallarını cavablandırıb







*Əvvəli 1-ci səh.*




**Lakin bu gün biz birlikdə daha geniş yanaşma tətbiq etməyə, dünyada hansı hadisələrin cərəyan etdiyini anlamağa, bu müharibədən və çaxnaşmadan çıxış yolu axtarmağa çalışacağıq. Bu gün ən aktual mövzulardan biri, əlbəttə ki, enerji təhlükəsizliyidir və mən məmnuniyyətlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi salamlayır və onu enerji təhlükəsizliyi mövzusunda çıxış etmək üçün tribunaya dəvət edirəm. Sabahınız xeyir, buyurun, söz Sizindir.**

**Prezident İlham ƏLİYEV:** Xanımlar və cənablar, sabahınız xeyir.

Əvvəlcə mən "The European House - Ambrosetti" beyin mərkəzinə bu vacib tədbirdə çıxış üçün məni dəvət etdiyinə görə təşəkkür etmək istəyirəm. Bu gözəl məkanda sizinlə bir yerdə olmağımdan çox məmnunam. Mənim İtaliyaya səfərim dünən başlayıb. Mən sizin ölkəyə tez-tez səfər edirəm. Sonuncu dəfə burada 2020-ci ildə dövlət səfərində olmuşam ki, o zaman biz İtaliya və Azərbaycan arasında strateji tərəfdaşlığa dair sənəd imzaladıq. Budəfəki səfərim də çox uğurlu oldu. Mənim cənab Prezident və cənab Baş nazir ilə görüşlərim oldu və biz ölkələrimiz arasında sıx əməkdaşlıq və strateji tərəfdaşlıq ilə bağlı geniş məsələləri müzakirə etdik. Həmçinin əlavə etmək istərdim ki, dörd il öncə Prezident Mattarella Azərbaycanda rəsmi səfərdə olub. Beləliklə, bu, onu nümayiş etdirir ki, bizim siyasi dialoqumuz olduqca fəaldır və biz ikitərəfli gündəliyimizə yeni, vacib mövzular daxil edirik. Onlardan biri təhsildir. Dünən biz yalnız enerji və iqtisadi inkişaf məsələləri haqqında deyil, həm də təhsil barədə danışdıq. Dünən Azərbaycanın Romadakı səfirliyinin binasında İtaliya-Azərbaycan Universitetinin yaradılmasına həsr edilmiş gözəl mərasim təşkil olundu. Azərbaycanın ADA Universiteti İtaliyanın beş aparıcı universitetinin tərəfdaşıdır. Bunlar Luiss Universiteti, Turin Politexnik Universiteti, Milan Politexnik Universiteti, Bolonya Universiteti və Romanın Sapienza Universitetidir. Bu, o deməkdir ki, bizim gündəliyimiz çox genişdir.

Əlbəttə, bu mürəkkəb dönəmdə müzakirələrin əsas mövzusu enerji siyasəti idi. Enerji təhlükəsizliyi məsələsində Azərbaycanın rolu haqqında danışarkən sizin diqqətinizi bəzi tarixi məqamlara yönəltmək istəyirəm. Bizim enerji strategiyamız mərhələlərə bölünüb. 1994-cü ildə müstəqilliyimizin bərpasından, sadəcə, üç il keçmişkən ilkin mərhələdə biz dünyanın aparıcı enerji şirkətlərini Xəzər dənizində çalışmağa dəvət edən ilk ölkə olduq. Tezliklə biz Avropa bazarına, əsasən də İtaliyaya neft ixrac edən ölkəyə çevrildik. Uzun illərdir ki, Azərbaycan İtaliyanı neftlə təchiz edən bir nömrəli ölkədir. Lakin açıq dənizə çıxışı olmayan ölkə olaraq bizim ixrac boru kəmərlərinə ehtiyacımız var idi. Biz iki strateji neft boru kəmərinin inşası ilə Avrasiyanın enerji xəritəsinin dəyişdirilməsi prosesində təşəbbüsü üzərimizə götürdük. Biri Türkiyənin Aralıq dənizi sahilindəki limana qədər uzanır, digəri isə Gürcüstanın Qara dəniz sahilindəki limana qədər. Beləliklə, biz Qara dəniz bazarı və dünya bazarlarına təchizatı şaxələndirməyə nail olduq.

Enerji strategiyamızın ikinci mərhələsi nəhəng qaz yataqlarının istismarı ilə bağlı idi. Azərbaycanın təsdiq edilmiş ehtiyatları ilə bağlı məlumata əsasən, bizim ehtiyatımız 2,6 trilyon kubmetrə bərabərdir. Azərbaycan son 10 il ərzində qonşu ölkələr bazarında etibarlı təchizatçıdır. Lakin mövcud potensial və qaz infrastrukturuna sərmayə yatırmaq planlarımızı nəzərə alsaq, bizim böyük qaz təchizatı boru kəmərinin inşasına ehtiyacımız var idi. Biz bunu "Cənub qaz dəhlizi" adlandırdıq. "Cənub qaz dəhlizi" üç boru kəmərindən ibarət inteqrasiya edilmiş boru kəmərləri sistemidir - Cənubi Qafqaz boru kəməri, Trans-Anadolu (TANAP) boru kəməri və Trans-Adriatik (TAP) boru kəməridir ki, o, İtaliyaya qədər uzanır. Bu, 3500 kilometr uzunluğunda mürəkkəb texniki infrastrukturdur. Onun bir hissəsi hündür dağlardan, bir hissəsi isə dənizin dibindən keçir. 2020-ci ilin son günü - dekabrın 31-də həmin mühüm layihənin yekun hissəsi olan TAP istifadəyə verildi. Həmin dövrdən etibarən bir il yarımdır ki, Azərbaycan Türkiyə və Gürcüstandan əlavə Avropanın üç ölkəsinə təbii qaz ixrac edən ölkəyə çevrilib. Bir il yarım ərzində artıq Avropaya 13,5 milyard kubmetr qaz nəql edilib ki, onun 11,7 milyard kubmetri İtaliyanın payına düşür. Bu il biz həcmi artırmağı və İtaliya bazarına 10 milyard kubmetr qaz nəql etməyi planlaşdırırıq. Ümumi ixracımız 22 milyard kubmetrdən artıq olacaq və burada artım üçün çox böyük potensial var.

Ötən ay Bakıda Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen və mən Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunu imzaladıq. Bu, bizim enerji resurslarımızın daha da inkişaf etdirilməsi istiqamətində atılmış çox vacib addımdır. Mən bunu gələcək fəaliyyətimizin yol xəritəsi adlandırdım. Biz Avropaya təbii qaz ixracını iki dəfə artırmağı planlaşdırırıq və əminəm ki, buna nail olacağıq. Bunun üçün isə vacib addımlar atılmalıdır - siyasi qərarlar, texniki tədbirlər və əlbəttə ki, sərmayə. Çünki "Cənub qaz dəhlizi"nin müxtəlif seqmentlərinin imkanları fərqlidir. TANAP-ın ötürmə qabiliyyəti 16 milyard kubmetrdir. Biz onu 32 milyard kubmetrə çatdırmağı planlaşdırırıq. TAP-ın ötürmə qabiliyyəti 10 milyard kubmetrdir, hazırda o, tam gücü ilə işləyir və biz onun imkanlarını ən azı 20 milyard kubmetrə çatdırmalıyıq. Bu, əlbəttə ki, əlavə maliyyə vəsaiti tələb edir. Biz bir ölkə və investor olaraq buna hazırıq. Lakin burada komandamızın digər üzvlərinin də iştirakı zəruridir.

Eyni zamanda biz Rusiya-Ukrayna müharibəsi nəticəsində təbii qaz məsələsinin avropalıların gündəliyində ən aktual məsələlərdən biri olduğunu görürük. Burada interkonnektorlar ilə bağlı müzakirələr gedir və onlardan biri - Yunanıstan-Bolqarıstan interkonnektoru istismara verilməyə yaxındır. Həmin qəbildən olan digər layihələr də var. İonik-Adriatik boru kəməri layihəsi var ki, o, Azərbaycan qazını üç Balkan ölkəsinə çatdıracaq. Ümumilikdə deyə bilərəm ki, Rusiya-Ukrayna müharibəsi başlayandan biz qaz ixracının həcminin artırılması və ya ixraca başlanılması ilə bağlı 10-dan artıq ölkədən rəsmi müraciətlər almışıq. Burada bizdən bu vaxta qədər onsuz da qaz alan ölkələr də var - Türkiyə, Gürcüstan, İtaliya, Bolqarıstan və digərləri.

Beləliklə, artan ehtiyacı təmin etmək üçün bizim sıx əməkdaşlığa və əlaqələndirməyə ehtiyacımız var. Bu məqsədlə biz artıq rəsmi olaraq Avropa İttifaqı və Azərbaycan arasında enerji ilə bağlı dialoqa start vermişik. Buraya yalnız təbii qaz deyil, həmçinin enerji bazarının digər seqmentləri də daxil olacaq, xüsusilə elektrik enerjisi, hidrogen və yaşıl hidrogen daxildir. Bununla biz Azərbaycanın enerji strategiyasının üçüncü mərhələsinə gəlib çıxdıq. Bu isə bərpaolunan enerji mənbələrinə sərmayənin qoyulmasıdır. Biz bir neçə il əvvəl bu prosesə başlamışıq. Əlbəttə, neft və qaz ilə bağlı diqqətinizə çatdırdığım rəqəmləri nəzərə alsaq, biz özümüzü olduqca rahat hiss edə bilərik. Çünki bizim elektrik enerjisi istehsal edən stansiyalarımız təbii qaz, yanacaq və su ehtiyatlarından istifadə edir.

Ancaq bərpaolunan enerjiyə, xüsusən də bu sahənin böyük potensialını nəzərə alaraq sərmayə qoymaq bizim mənəvi öhdəliyimiz idi. Artıq biz bərpaolunan enerji sahələrinin Azərbaycandakı potensialını da dəyərləndirmişik. Belə ki, Xəzərin təkcə Azərbaycan sektorunda təsdiq olunmuş potensialı 157 qiqavatdır.

2020-ci ilin Vətən müharibəsində azad etdiyimiz ərazilərdə - Qarabağ və Zəngəzurda külək, günəş və hidroenerji stansiyalarının potensialı 10 qiqavatdan çoxdur. Biz artıq bu mühüm potensialın inkişaf etdirilməsi mərhələsindəyik. Sizə deyə bilərəm ki, biri Səudiyyə Ərəbistanı, biri Birləşmiş Ərəb Əmirliyi və digəri isə Birləşmiş Krallıqdan üç aparıcı enerji şirkəti artıq investisiya yatırır və onlar yenilənə bilən üç enerji stansiyasına yatırım etməyə davam edəcəklər. Bu stansiyaların ümumi gücü 700 meqavatdan çoxdur. Bu, bizə ixrac üçün əlavə qaz tədarük etməyə kömək edəcək. Bu isə bizim ixrac potensialımızı gücləndirəcək.

Bu gün biz elektrik enerjisini Avropaya necə nəql edəcəyimizdən danışırıq. Gürcüstan, Türkiyə, Bolqarıstandan keçməklə Avropaya çıxacaq artıq mövcud olan xətt vasitəsilə, yoxsa yeni xətlə? Yoxsa enerji təchizatı üzrə geniş potensialı olan Zəngəzur dəhlizi ilə? Bunlar bizim enerji planlarımızın üç mərhələsidir. Bu, yalnız Avropanı deyil, həmçinin daha geniş sahəni əhatə edəcək. Biz öz tərəfdaşlarımızın ehtiyaclarını qarşılamaq üçün əlimizdən gələni etməyə çalışacağıq. Aydındır ki, enerji təhlükəsizliyi milli təhlükəsizlikdir. Ukraynada müharibə başlayandan sonra bu, hər zamankından daha aydındır. Diqqətiniz üçün bir daha təşəkkür edirəm. Məni bu mühüm tədbirdə iştirak üçün dəvət etdiyinizə görə sizə minnətdaram.

**- Suallarınız varsa, onlarla davam edək. Çıxışınız üçün minnətdaram. Çünki çıxışınız mövzunu tam əhatə etdi. Biz bütün Avropada enerji məsələlərini müzakirə edirik. İcazə verin, Sizə bir sual verim. Bir regional məsələ də var. Siz çıxış edərkən bu sualı vermək istədim. Rusiya ilə tarixi əlaqələrə malik bir regionda olmaq nə dərəcədə çətindir? Mən anlamağa çalışıram ki, Sizin ölkənizin siyasəti hansı yöndədir. Bilirsiniz ki, bu, çox çətindir.**

- Bu, çətin görünə bilər. Lakin bu, bizim tariximizdir, bizim coğrafiyamızdır və biz bu coğrafiyada hər zaman yaşamışıq. Nə biz, nə də qonşularımız bu coğrafiyanı dəyişə bilməz. Düşünürəm ki, ölkəmizin uğuru siyasi inkişafda, müstəqilliyin gücləndirilməsindədir. Biz keçən il müstəqilliyimizin 30-cu ildönümünü qeyd etdik. Bu göstərir ki, qonşularla normal münasibətləri saxlamaq mümkündür. Eyni zamanda bizim ölkəmizdən çox böyük olan qonşularla da münasibətləri saxlayaraq öz milli kimliyimizi, müstəqilliyimizi və müstəqil siyasi mövqeyimizi qorumaq da mümkündür. Qonşularımızla münasibətlərə gəldikdə isə deyə bilərəm ki, biz hər zaman əməkdaşlıq sahələrini tapmağa çalışırıq. Problemli sahələri və yaxud da fərqli mövqelərimiz olan məsələləri hər zaman ifadə etmişik.

*Ardı 3-cü səh.*

# Azərbaycan Avropaya təbii qaz ixracını iki dəfə artırmağı planlaşdırır

## Prezident İlham Əliyev İtaliyanın Çernobbio şəhərində keçirilən beynəlxalq forumda çıxış edib və xarici kütləvi informasiya vasitələrinin suallarını cavablandırıb




*Əvvəli 2-ci səh.*

Biz heç bir zaman özümüzü nəhəng qonşularımızın siyasətinə uyğunlaşdırmamışıq. Bizim hər zaman öz siyasətimiz olub, hansı ki, beynəlxalq hüquq, ədalət, beynəlxalq təşkilatların qərarları və sənədləri, həmçinin müdriklik üzərində formalaşıb. Buna görə də düşünürəm ki, biz uğur əldə etmişik. Azərbaycan artıq sabit siyasi mövqeyə malikdir, həmçinin iqtisadiyyatımız da sabitdir. Biz müstəqil olmaq üçün iqtisadi anlamda yatırımlar etmişik. Yoxsa biz özümüzü asılı hiss edərdik. Azərbaycan imperiyaların hissəsi olub, biz Sovet İttifaqının bir parçası olmuşuq. Artıq 30 ildir ki, bizim insanlarımız müstəqildir və biz əbədi olaraq müstəqil yaşamaq istəyirik. Bunun üçün biz güclü olmalıyıq. Bizim yaxşı dostlarımız və tərəfdaşlarımız olmalıdır.

**- Sizin dedikləriniz çox önəmlidir. Siz regionda və regiondan kənarda yeni əlaqələrdən bəhs etdiniz. İtaliya ilə mədəni, təhsil və özəlliklə də enerji sahələrində əlaqələr inkişaf edir. Növbəti paneldə biz yeni qlobal düzəni müzakirə edəcəyik. Sizin ölkənizin mövqeyi nədən ibarət olacaq?**

- Bu, bir çox məsələlərdən asılıdır. Təbii ki, yeni qlobal vəziyyətin necə olacağını öncədən təxmin etmək çətin məsələdir. Yalnız bu aydındır ki, dünya fevraldan əvvəl olduğu vəziyyətdə heç vaxt olmayacaq. Dünya dəyişib və bu dəyişikliklərin hansı axımla gedəcəyi bu amillərdən asılıdır - Ukraynada müharibə nə qədər müddət davam edəcək, bu savaşın sonu necə bitəcək, dünyadakı və təbii ki, regiondakı güclərin balansı hansı şəkildə olacaq? Yeni müstəqil bir ölkə kimi, özümüzü xarici amillərdən müdafiə etmək bizim üçün əsas məsələ olacaq. Çünki bizim ölkələrimiz daxilən artıq inteqrasiya edib. Bizim daxildə ölkəmizi hansı yöndə inkişaf etdirmək üçün birliyimiz var. Buna görə də yeni qlobal düzənin bizim regiona təsirləri, böyük region ölkələrinin mövqelərinin necə olacağı, Ermənistanla sülhə nail olmaq planlarımızda nələr əldə edəcəyimiz, övladlarımız və yeni nəsillərin gələcəyinin necə olacağı bizim üçün maraqlıdır. Odur ki, biz




vəziyyətə nəzarət edirik. Təbii ki, addımlarımızı öz strategiyamıza uyğun atacağıq. Eyni zamanda biz dünyanın dəyişməsi faktına əhəmiyyət verməyə bilmərik. Həmçinin beynəlxalq hüquq normalarının tamamilə pozulduğunu görürük. Bu beynəlxalq hüquq normaları elə bizim öz məsələmizdə də pozulmuşdur. Biz torpaqlarımız işğal altında olarkən beynəlxalq ictimaiyyətə fəal şəkildə müraciət etmişdik. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələri 27 il ərzində yerinə yetirilməmişdi. Biz indi bir çox digər bölgələrdə beynəlxalq hüququn pozulmasını görürük. Biz görürük, bəzi ölkələr düşünür ki, onlar buna məhəl qoymaya bilərlər və buna əhəmiyyət vermirlər. Beləliklə də bu, tamamilə yeni situasiyadır. Dünyanın yeni düzəni necə olacaq? Beynəlxalq institutlar, Birləşmiş Millətlər Təşkilatı necə olacaq? O, yenidən qurulacaq, ya başqa bir təşkilat ortaya çıxacaq? Bunların hamısı dünyada yeni fikirləri təşviqetmə gücünə malik olanların məsuliyyətindədir.

**- Bu, qarşımızdakı onilliklərdə ən vacib məsələlərdən biri olacaq. Prezident Əliyev, Sizinlə söhbət etmək çox xoş idi və müdrik fikirlərinizə görə təşəkkür edirəm.**

- Sağ olun.

* * *

Qeyd edək ki, 1965-ci ildən fəaliyyət göstərən "The European House - Ambrosetti" İtaliyanın idarəetmə-məsləhət xidməti sahəsində aparıcı beyin mərkəzi hesab olunur. Mərkəz Avropa və onun hüdudlarından kənarda ofislərə və geniş tərəfdaşlıq şəbəkəsinə malikdir. Dünyanın beyin mərkəzləri ilə bağlı aparıcı reytinqlərə əsasən İtaliyada birinci və Avropada ilk onluqda qərarlaşan "The European House - Ambrosetti" İtaliya və Avropa şirkətləri üçün əhəmiyyət daşıyan məsələlərin müzakirə olunduğu forumlar və müxtəlif tədbirlər təşkil edərək italyan şirkətlərinin qlobal tərəfdaşları ilə əlaqələrinin yaradılmasına və əməkdaşlığın təşviqinə xidmət edir.

"The European House - Ambrosetti", eyni zamanda İtaliya və Avropa üçün potensiala malik ölkələrlə əməkdaşlığın təşviqinə müsbət təsir etmək imkanı olan və ikitərəfli iqtisadi gündəmləri inkişaf etdirmək iqtidarında olan liderləri bir araya gətirərək yüksəksəviyyəli müzakirə platformaları təqdim edir.

Müxtəlif illərdə Çernobbio forumunda dünyanın aparıcı ölkələrinin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri və digər nüfuzlu şəxslər iştirak ediblər.

* * *

Sonra Prezident İlham Əliyev xarici kütləvi informasiya vasitələrinin suallarını cavablandırdı.

**Müxbir: Ermənistanla bağlı qeyd etdiyiniz beş bənd nədən ibarətdir?**

**Prezident İlham ƏLİYEV:** Birincisi, hər iki ölkənin ərazi bütövlüyünün tanınması, ikincisi, qarşılıqlı olaraq hər hansı ərazi iddialarından imtina, üçüncüsü, güc tətbiq etməmək və ya güclə hədələməmək, dördüncüsü, sərhədlərin delimitasiyası və beşincisi, kommunikasiyaların açılması.

Bunlar Azərbaycan tərəfindən Ermənistana təklif olunmuş beş baza prinsipidir və Ermənistanın baş naziri onları qəbul edib. Bu, bir daha iki gün bundan əvvəl bizim Brüsseldəki görüşümüzdə təsdiq edilib. Bizim xarici işlər nazirləri həmin beş prinsip əsasında sazişin mətni üzərində praktiki danışıqlara başlayacaqlar.

**- Azərbaycandan İtaliyaya əlavə qazın nəqli mümkündürmü?**

- Əlavə qaz həcmi nəql olunmaqdadır. Bu il bu rəqəm təqribən 10 milyard kubmetr təşkil edəcək. Ötən illə müqayisədə bu, daha çoxdur. Lakin əlavə qaz həcmi üçün biz TAP-ın texniki imkanlarını artırmalıyıq - 10 milyarddan 20 milyard kubmetrə qədər. Nəzərə almaq lazımdır ki, bizim TAP-da payımız yalnız 20 faizdir. Digər səhmdarlar da razılığa gəlməli və birgə sərmayə layihəsini planlaşdırmalıyıq. Bunu isə tezliklə etmək lazımdır. Çünki biz Avropa Komissiyası ilə razılığa gəlmişik ki, 2027-ci ilədək Azərbaycandan Avropa İttifaqına qaz ixracını iki dəfə - 20 milyard kubmetrə qədər artıraq. TAP genişləndirilməsə, bu, mümkün olmayacaq. Beləliklə, biz ilk olaraq bunu etməli, daha sonra isə müqavilələrlə bağlı danışıqlara başlamalıyıq.

**- TAP-ın genişləndirilməsi ilə bağlı müzakirələr başlayıbmı?**

- Bəli, biz artıq praktiki danışıqlara başlamışıq. Mən konfransda bildirdim, İtaliya bizim əsas tərəfdaşımızdır. Biz il yarımdır ixraca başlamışıq, 13,5 milyard kubmetr qaz nəql edilib ki, o həcmin 11,7 milyard kubmetri İtaliyaya ixrac olunub.

**Təşkilatçı:** Qaz həcminin iki dəfə artırılması ilə bağlı Çernobbio razılaşması.

**Prezident İlham ƏLİYEV:** Bəli. Çox sağ olun.

# Prezident İlham Əliyevin İtaliyaya səfəri başa çatıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına işgüzar səfəri sentyabrın 2-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını İtaliya hökumətinin rəsmi nümayəndələri yola saldılar.

# Azərbaycan Vyetnam ilə ənənəvi dostluq münasibətlərinin hərtərəfli inkişafına mühüm əhəmiyyət verir

## Vyetnam Sosialist Respublikasının Prezidenti zati-aliləri cənab Nquyen Suan Fuka

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost Vyetnam xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Bu gün Vyetnam dünyada sürətlə və dinamik inkişaf edən, iqtisadiyyat, sənaye, elm, müasir texnologiyalar və digər sahələrdə böyük nailiyyətlər əldə etmiş dövlətdir.

Azərbaycan dost və tərəfdaş ölkə olan Vyetnam ilə ənənəvi dostluq münasibətlərinin hərtərəfli inkişafına mühüm əhəmiyyət verir. Dövlətlərarası əlaqələrimizin və əməkdaşlığımızın bugünkü səviyyəsi məmnunluq doğurur.

İnanıram ki, ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın istər ikitərəfli qaydada, istərsə də beynəlxalq təsisatlar çərçivəsində müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Vyetnam xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 avqust 2022-ci il*

# Görüşdə Azərbaycan ilə İran arasında faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi vurğulanıb



Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev sentyabrın 2-də İran İslam Respublikasının səfiri Seyid Abbas Musəvi ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında iqtisadi əlaqələr və əməkdaşlıq məsələləri müzakirə edilib. Azərbaycan ilə İran arasında faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi, həmçinin birgə layihələrin icrasının davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

# Alessandro DESERTİ: "İtaliyanın ali təhsil müəssisələri ilə ADA Universitetinin əməkdaşlığa başlaması çox mühüm hadisədir"

"İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi ilə ADA Universitetinin əməkdaşlığa başlaması çox mühüm hadisədir".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Milan Politexnik Universitetinin Dizayn Departamentinin direktoru professor Alessandro Deserti deyib.

İtaliya-Azərbaycan Universitetinin yaradılması üzrə əməkdaşlıqdan məmnun olduqlarını deyən A.Deserti bildirib: "ADA Universiteti ilə əməkdaşlığa dair imzalanmış saziş çərçivəsində İtaliya-Azərbaycan Universitetində fakültə və proqramların yaradılması nəzərdə tutulur. Milan Politexnik Universiteti ilə yanaşı, bu layihəyə İtaliyanın Luiss Guido Carli Universiteti, Romanın Sapienza Universiteti, Turin Politexnik Universiteti və Alma Mater Bolonya Universiteti qoşulub".

"ADA Universiteti ilə əməkdaşlıq təmsil etdiyim Milan Politexnik Universiteti üçün böyük əhəmiyyət daşıyır. Biz birgə təhsili, yeni fakültə və proqramların yaradılmasını həyata keçirəcəyik, eləcə də universitetlər arasında tələbə mübadiləsi nəzərdə tutulur. İnanıram ki, birgə səylərimiz iki dost ölkənin - İtaliya və Azərbaycanın yüksələn xətlə inkişaf edən əlaqələrinə öz töhfəsini verəcək, hər iki tərəfə fayda gətirəcək", - deyə Milan Politexnik Universitetinin Dizayn Departamentinin direktoru vurğulayıb.

# Simona TONDELLİ: "İtaliya-Azərbaycan Universiteti hər iki ölkənin münasibətlərində xüsusi yer tutacaq"

"Birgə səylərimiz sayəsində İtaliya-Azərbaycan Universitetinin fəaliyyəti strateji tərəfdaşlıq səviyyəsinə yüksələn iki ölkənin münasibətlərində xüsusi yer tutacaq".

Bu sözləri AZƏRTAC-a müsahibəsində İtaliyanın Alma Mater Bolonya Universitetinin icraçı prorektoru professor xanım Simona Tondelli deyib.

"Romada Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə mübadilə etdiyimiz "İtaliya-Azərbaycan Universiteti ilə bağlı ADA Universiteti və Alma Mater Bolonya Universiteti arasında akademik əməkdaşlığa dair Saziş" çox mühüm sənəddir. Bu razılaşma tərəfdaş universitetlərin birgə fəaliyyəti sayəsində hər iki ölkəyə ixtisaslı kadrlar və uğurlar qazandıracaq", - deyə S.Tondelli bildirib.

"Bu gün bizim üçün mühüm hadisədir. Çünki bu əməkdaşlıq İtaliya və Azərbaycan, o cümlədən hər iki universitet üçün innovasiyalar baxımından uğurlar qazandıracaq gələcək əməkdaşlığın başlanğıcıdır. Biz yeni fəaliyyət növlərini təqdim etməklə resursların mübadiləsini həyata keçirəcəyik. Ümid edirəm ki, yeni əməkdaşlığımız hər iki ölkənin dayanıqlı inkişafına öz töhfəsini verəcək", - deyə professor vurğulayıb.

# Azərbaycan - İtaliya münasibətlərində yeni səhifə açıldı




## İlham Əliyevin qlobal layihələri Avropanın enerji xəritəsini dəyişib

### President Çernobbio forumundakı çıxışı ilə Azərbaycanın beynəlxalq nüfuzunu və rolunu bir daha dünyaya nümayiş etdirdi

*Əvvəli 1-ci səh.*

Dünyanın beyin mərkəzləri ilə bağlı aparıcı reytinqlərə əsasən İtaliyada birinci və Avropada ilk onluqda qərarlaşan "The European House - Ambrosetti" İtaliya və Avropa şirkətləri üçün əhəmiyyət daşıyan məsələlərin müzakirə olunduğu forumlar və müxtəlif tədbirlər təşkil edərək italyan şirkətlərinin qlobal tərəfdaşları ilə əlaqələrinin yaradılmasına və əməkdaşlığın təşviqinə xidmət edir.

"The European House - Ambrosetti" eyni zamanda İtaliya və Avropa üçün yüksək potensiala malik ölkələrlə əməkdaşlığın təşviqinə müsbət təsir etmək imkanı və ikitərəfli iqtisadi gündəmləri inkişaf etdirmək iqtidarında olan liderləri bir araya gətirərək yüksəksəviyyəli müzakirə platformaları təqdim edir. Müxtəlif illərdə Çernobbio forumunda dünyanın aparıcı ölkələrinin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri və digər nüfuzlu şəxslər iştirak ediblər.

Foruma xüsusi qonaq kimi dəvət edilən İlham Əliyev çıxışında bir daha Azərbaycanın iqtisadi qüdrətindən söz açaraq həyata keçirdiyi mühüm qlobalmiqyaslı layihələrdən söz açdı və ölkəmizin Avropa üçün əhəmiyyətini dəyərləndirdi.

Dövlət başçısı bir sıra sahələri əks etdirən mühüm kontekstlərə toxunmaqla ölkəmizin Avropadakı və dünyadakı rolunun nə qədər mühüm əhəmiyyət təşkil etdiyini forum iştirakçılarına çatdırdı.

#### İtaliya bazarına 10 milyard kubmetrə yaxın qaz ixrac edilməsi planlaşdırılır

Prezident İlham Əliyev ilk olaraq İtaliya Prezidenti Sercio Mattarellanın dörd il əvvəl, 2018-ci ilin iyul ayında ölkəmizə etdiyi rəsmi səfəri xatırlayaraq imzalanan sənədlərin əhəmiyyətini dəyərləndirdi.

Qeyd edək ki, Sercio Mattarella İtaliyanın Azərbaycana səfər edən ilk prezidenti kimi adını iki ölkənin tarixinə yazdırıb. O, eyni zamanda İlham Əliyevin sərəncamına əsasən iki ölkə arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Azərbaycanın ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilib.

Budəfəki işgüzar səfər zamanı isə ikitərəfli gündəliyə yeni və çox mühüm məsələlər əlavə edilib. Bunlardan biri də təhsil sahəsidir. Keçirilən görüşlər zamanı təkcə enerji məsələləri, iqtisadi inkişafla bağlı deyil, həmçinin təhsil məsələlərinə dair müzakirələr aparılıb və əməkdaşlıq sahələrinin genişləndiyi vurğulanıb.

Azərbaycanın Avropanın enerji təminatçısı kimi rolunu dəyərləndirən İlham Əliyev dedi ki, hələ illər öncə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonrakı çətin dövrlərdə Avropa bazarlarına çıxmağa nail olub. Bu, əlbəttə ki, asan başa gəlməyib. Çünki açıq dənizə çıxışı olmayan bir ölkənin Avropa və dünya bazarına çıxması üçün ixrac kəmərlərinə ehtiyacı var idi. Məhz Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycan bu istəyini reallığa çevirə bildi. 1994-cü ildə Azərbaycan Xəzər dənizində əməkdaşlıq etmək üçün xarici dövlətlərin aparıcı enerji şirkətlərini dəvət edən ilk dövlət oldu. Azərbaycan strateji neft boru kəmərlərini Aralıq dənizi limanında yerləşən Türkiyəyə və Gürcüstanın Qara dəniz limanına çəkməklə dünya bazarına enerji tədarükünü şaxələndirdi. Avropanın enerji xəritəsini dəyişdirməyi bacardı. Bu gün isə Azərbaycanın həyata keçirdiyi qlobalmiqyaslı layihələr ölkəmizə siyasi və iqtisadi dividendlər gətirməkdədir.

Bu sahədə də ilk əməkdaşlıq məhz İtaliya ilə qurulub və artıq ölkəmiz uzun illərdir İtaliyanın ən böyük neft təchizatçısı kimi tanınmaqdadır. Azərbaycan İtaliyaya neft tədarükünə görə birinci, qaz tədarükünə görə isə üçüncü yerdədir. "Cənub qaz dəhlizi" və onun tərkib hissəsi olan Trans-Adriatik Qaz Boru Qəməri (TAP) ikitərəfli enerji əməkdaşlığının və İtaliyanın enerji təhlükəsizliyinin gücləndirilməsində mühüm amildir.

İlham Əliyev Azərbaycanın qaz ehtiyatlarından da söz açaraq bu il qazın həcminin daha da artırılması və İtaliya bazarına 10 milyard kubmetrə yaxın qaz ixrac edilməsinin planlaşdırıldığını vurğuladı.

#### Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatı 2,6 trilyon kubmetrdir

Göründüyü kimi, Azərbaycanın Avropanın aparıcı enerji təminatçısı olması artıq özünü kifayət qədər sübuta yetirib və bu amil həm də belə nəticəyə gəlməyə zəmin yaradıb ki, məhz Avropa bazarından dünya bazarına çıxmaq imkanlarına malik olan ölkəmiz qarşıdakı illərdə həmin planlarını realizə etmək gücündə və qüdrətindədir.

Forumdakı çıxışı zamanı İlham Əliyev iştirakçıların diqqətinə çatdırdı ki, Azərbaycanın enerji strategiyasının ikinci mərhələsi nəhəng qaz yataqlarının işlənməsi olub və artıq ölkəmizin təsdiqlənmiş qaz ehtiyatı 2,6 trilyon kubmetrdir. Son dövrdə isə Azərbaycana 10-dan çox ölkədən - Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan və digərlərindən ya mövcud qaz təchizatının artırılması, ya da qaz təchizatına yeni qoşulma ilə bağlı rəsmi müraciətlər daxil olub. Ukrayna-Rusiya müharibəsi başlayandan sonra təbii qaz məsələsi Avropanın gündəliyində duran əsas məsələlərdən birinə çevrilib. Bir çox layihə mövcuddur ki, bunlardan biri də tikintisi yekunlaşmaqda olan Yunanıstan-Bolqarıstan İnterkonnektorudur. Buna bənzər digər layihə İonik-Adriatik boru kəməridir. Bu kəmərlə Azərbaycan qazı üç Balkan ölkəsinə nəql ediləcək.

Bir sözlə, Azərbaycan Avropa İttifaqına üzv dövlətlərin böyük əksəriyyətinin enerji təchizatçısına çevrilməkdədir. Keçən ay Azərbaycanla Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması isə Azərbaycanın enerji resurslarının daha da inkişaf etdirilməsi istiqamətində atılmış çox mühüm addım hesab olunur.

İlham Əliyev bu memorandumu enerji sahəsində gələcək əməkdaşlıq üçün yol xəritəsi rolunu oynadığını da vurğulayaraq bəyan etdi ki, Azərbaycan məhz bu sənədə əsaslanaraq Avropaya təbii qaz ixracını iki dəfə artırmağı planlaşdırır. Əlbəttə ki, ölkəmizin potensial qaz ehtiyatları da təsdiq edir ki, Azərbaycan bunu da reallaşdırmaq iqtidarındadır.

Beləliklə, deyə bilərik ki, Azərbaycan Prezidentinin İtaliyaya işgüzar səfəri bir sıra önəmli hadisələrlə yadda qalması ilə yanaşı, İlham Əliyevin Avropa məkanı üçün əhəmiyyət kəsb edən mühüm bəyanatları və çıxışları beynəlxalq aləmin də diqqətini cəlb etdi. Prezident beynəlxalq Çernobbio forumundakı çıxışı ilə Azərbaycanın Cənubi Qafqazdakı nüfuzunu və rolunu bir daha dünyaya nümayiş etdirdi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## 8 ayda 11 milyard dollarlıq ticarət dövriyyəsi

### Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri münasibətlərin daha da inkişafına müsbət impuls verəcək

Azərbaycan və İtaliya arasında əlaqələr tarixi köklərə dayanır və ildən-ilə inkişaf etməkdədir. Bu il isə Azərbaycan və İtaliya arasında diplomatik əlaqələrin 30 illiyidir. İki ölkə arasında müxtəlif sahələrdə geniş əməkdaşlıq mövcuddur. Azərbaycanla İtaliya arasında dostluq, əməkdaşlıq münasibətlərinin formalaşmasında təbii ki, Prezident İlham Əliyevin yürütdüyü siyasətin böyük rolu var.

İki ölkə arasında iqtisadi əlaqələr də yüksək səviyyədədir. Təsadüfi deyil ki, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma və bərpa işlərində İtaliya şirkətləri də yer alır.

Azərbaycan İtaliyanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Eyni zamanda ölkəmiz İtaliyanın əsas neft və neft məhsulları təchizatçısıdır. Bundan başqa, iqtisadiyyatın müxtəlif sahələrində dinamik inkişaf edən əlaqələri görmək olar.

Sentyabrın 1-2-də Prezident İlham Əliyevin İtaliya Prezidenti Sercio Mattarellanın dəvəti ilə bu ölkəyə işğüzar səfəri əlaqələrin daha da inkişafına müsbət impuls vermiş oldu. Dövlət başçısının İtaliyaya səfəri zamanı İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi də keçirildi. Bu da iki ölkə arasında əlaqələrin yeni səhifəsi kimi qiymətləndirilir. Dövlət başçısı vurğulayıb ki, təhsil sahəsində yeni genişmiqyaslı əməkdaşlığa başlayırıq: "İki il bundan əvvəl İtaliyada dövlət səfərində olarkən mən bu təkliflə çıxış etmişdim ki, İtaliya-Azərbaycan Universiteti yaradılsın. İtaliya rəhbərliyi də bunu alqışladı və qısa müddət ərzində artıq biz praktiki fəaliyyətə başlayırıq". Dövlət başçısı həmçinin vurğulayıb ki, bu universitet İtaliya-Azərbaycan dostluğu mərkəzi olacaq.

#### Prezidentin İtaliyaya səfəri münasibətləri yeni səviyyəyə yüksəldəcək

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Asim Mollazadə qeyd edir ki, İtaliya Avropa İttifaqı ölkələri arasında Azərbaycanın iqtisadi sahələr üzrə əməkdaşlıq etdiyi ən etibarlı tərəfdaşdır.

Deputatın sözlərinə görə, iki dövlət arasındakı əməkdaşlığın tarixi kökləri var və uzun illərdir ki, yüksək münasibətlər davam edir. Azərbaycan və İtaliya arasında əməkdaşlıqla bağlı bir çox sənədlər imzalanıb. Eyni zamanda bu istiqamətdə daim görüşlər keçirilir.

Asim Mollazadə vurğulayır ki, Prezident İlham Əliyevin İtaliyaya səfəri iki ölkə arasında uğurla davam etdirilən əməkdaşlığı daha da gücləndirəcək: "Bu səfər Azərbaycan və İtaliya arasındakı münasibətləri yeni səviyyəyə daşıyacaq. Görüş zamanı İtaliyanın Nazirlər Şurasının Sədri Mario Draqi də münasibətlərimizin yüksələn xətt üzrə inkişaf etməsini vurğulayıb. Dövlətimizin başçısı Azərbaycanın İtaliyadakı səfirliyinin yeni binasının açılışında da iştirak edib. Səfirlik ölkələrimiz arasında iqtisadiyyat, siyasət və digər sahələrdə əməkdaşlığın inkişafına xidmət edəcək. Eyni zamanda İtaliya-Azərbaycan Universiteti ilə bağlı akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadilə mərasimi baş tutub".

Deputat bildirir ki, bu həm də İtaliya ilə təhsil sahəsində əlaqələrin genişlənəcəyindən xəbər verir. İtaliyanın ən nüfuzlu universitetlərinin Azərbaycanın ADA Universiteti ilə əməkdaşlığı ölkəmizdə təhsil səviyyəsinin güclənməsinə təkan verəcək.

Ümumiyyətlə isə Azərbaycan-İtaliya əməkdaşlığı hər iki ölkənin mənafeyinə xidmət edir. Ölkəmiz İtaliyanın enerji təhlükəsizliyində böyük rol oynayır və bu rol getdikcə artmaqdadır.

#### İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşı olaraq qalacaq

Milli Məclisin Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Vüqar Bayramov qəzetimizə açıqlamasında deyib ki, İtaliya Azərbaycanın strateji müttəfiqlərindəndir və bu Avropa ölkəsini təmsil edən şirkətlər işğaldan azad olunan ərazilərimizin yenidən qurulmasında fəal iştirak edirlər.

Deputat qeyd edir ki, Azərbaycan İtaliya da daxil olmaqla, Avropanın enerji təhlükəsizliyinin formalaşmasına, neftə, eləcə də mavi qaza olan tələbatının ödənilməsinə birbaşa dəstək verir: "Nəzərə alsaq ki, Azərbaycan öz neftini İtaliya vasitəsilə Avropa bazarına çıxarır, deməli, İtaliya ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq artıq formalaşıb və bu, inkişaf etməkdədir. 2020-ci ilin sonuncu ayından etibarən isə Azərbaycan İtaliyaya mavi qaz nəql edir. Son bir ildə Azərbaycan Avropaya 15 milyard kubmetrə yaxın mavi qaz ixrac edib. TAP layihəsi vasitəsilə Avropaya birinci mərhələdə 10 milyard kubmetr, ikinci mərhələdə 20 milyard kubmetr mavi qaz nəql ediləcək. Nəql ediləcək mavi qazın əhəmiyyətli hissəsi məhz İtaliya bazarına ixrac ediləcək ki, bu da təbii ki, İtaliya və Azərbaycan arasında iqtisadi münasibətlərin növbəti dövrdə də inkişaf edəcəyindən xəbər verir".

Vüqar Bayramov bildirir ki, iki ölkə arasındakı ticarət dövriyyəsində də kəskin artımlar var: "Azərbaycan və İtaliya arasındakı ümumi ticarət dövriyyəsi 2020-ci ildə 4 milyard 568 milyon dollar olub. Ötən il isə ölkələrimiz arasında ticarət dövriyyəsi 2 dəfədən çox artaraq 9 milyard 663 milyon dollara çatıb. 2021-ci ildə Azərbaycanın İtaliyaya ixracatı 9 milyard 243 milyon, idxalı isə 419.7 milyon dollar olub".

Deputat ticarət dövriyyəsinin bu ilin 6 ayında 9 milyard 116 milyon dollara çatdığını qeyd edib. İtaliyaya 8 milyard 972 milyon dollar məhsul ixrac edən ölkəmiz oradan 144.3 milyon dollarlıq idxal həyata keçirib. Bu ilin ilk 8 ayında isə 11 milyard dollarlıq ticarət dövriyyəsi qeydə alınıb. Bu isə o deməkdir ki, artıq bu ilin 8 ayında ticarət dövriyyəmiz ötənilki ümumi rəqəmdən daha çox olub.

Deputat vurğulayır ki, Azərbaycan qeyri-neft məhsullarını da İtaliya bazarına çıxarmaq niyyətindədir. İtaliya Azərbaycan üçün qeyri-neft ixracatı baxımından yeni bazarlardan biri hesab olunur. Təbii ki, Azərbaycanın qeyri-neft məhsullarının yeni bazarlara ixrac edilməsi ölkəyə daxil olan valyutanın həcminin artırılması baxımından vacibdir. İtaliya növbəti dövrlərdə də Azərbaycan üçün əsas ticarət tərəfdaşı olaraq qalacaq. İki ölkə arasındakı strateji tərəfdaşlıq ölkəmizin iş adamlarının, qeyri-neft sektorunda çalışan sahibkarların bu münasibətlərin inkişaf etməsindən faydalanmalarına imkan verəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Tərəfdaşlıq sərhəd tanımır

### Enerji sektorunda başlanan əməkdaşlıq Qarabağ və Şərqi Zəngəzura keçir

*Əvvəli 1-ci səh.*

Əlbəttə, əlaqələrin xeyli hissəsi enerji sektoruna aiddir. Xüsusilə Azərbaycandan İtaliyaya çatanadək 3500 kilometr yol keçən "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti - TAP (Trans-Adriatik Qaz Boru Kəməri) son illər iki ölkə arasında əlaqələri daha da möhkəmləndirib. Bu ilin sonuna TAP-la İtaliyaya qısa və uzunmüddətli müqavilələr üzrə qaz ixracının 9,5 milyard kubmetr olacağı proqnozlaşdırılıb.

Bu kəmərlə Avropaya qaz nəqlinə 2020-ci ilin son günündə başlanıb və ixrac uğurla davam edir. Bu da o deməkdir ki, Azərbaycan və İtaliya gələcək onilliklər ərzində enerji sahəsində daha yaxın tərəfdaş olacaqlar.

Azərbaycanın Avropa İttifaqının və İtaliyanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu getdikcə artır. Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayenin ölkəmizə bu ilin iyul ayındakı səfəri və səfər çərçivəsində Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması bunu bir daha təsdiq edir.

Dövlətimizin başçısı həmin hadisə ilə bağlı bəyanatında demişdir: "Enerji sahəsində apardığımız fəal əməkdaşlığın on beş ildən artıq tarixi var. Bugünkü memorandum aramızda imzalanmış birinci sənəd deyil. Biz 2006-cı ildə Anlaşma Memorandumunu və 2011-ci ildə "Cənub qaz dəhlizi" ilə bağlı Birgə Bəyannaməni imzalamışıq. Bir sözlə, yaxşı tarixçəmiz və nailiyyətlərimiz var. Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaşlarımızın dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir. Biz neft hasilatı ilə başladıq. Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəmərini çəkdik".

Yeri gəlmişkən qeyd edək ki, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin 11 səhmdarından biri məhz İtaliya şirkətidir. "Eni" uzun illərdir Azərbaycanda çalışır və onun BTC-də 5 faizlik iştirak payı var.

Gələcək əməkdaşlıqda qeyri-neft sektorunun da xüsusi çəkiyə malik olacağına şübhə yoxdur. Məlum olduğu kimi, bu il sentyabrın 1-də Romada İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Romanın Sapienza Universiteti, Turin Politexnik Universiteti, Alma Mater Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi keçirilib. Prezident İlham Əliyev həmin tədbirdə iştirak edib.

Bu ali təhsil ocağında tədris olunacaq akademik proqramlar iqtisadiyyatın strateji sektorlarını əhatə edəcək və yüksəkixtisaslı mütəxəssislər yetişdirəcək. Universitet eyni zamanda kənd təsərrüfatı və qida sənayesi, mühəndislik, o cümlədən elektrik və elektronika, nəqliyyat və infrastruktur mühəndisliyi, memarlıq, həmçinin şəhərsalma və landşaft memarlığı, dizayn, sosial elmlər, biznesin idarə olunması, italiyaşünaslıq və digər istiqamətlər üzrə təcrübə, nou-hau, texnologiya və innovasiyaların tətbiq ediləcəyi elm və bilik ocağı olacaq.

Hazırda isə Azərbaycanda 100-dən çox İtaliya şirkəti çalışır. Bu ölkənin şirkətlərinin iştirak etdiyi və edəcəyi sahələr çoxdur. Onlardan biri enerji istehsalı sahəsidir. Azad olunmuş ərazilərdə enerji istehsalı üçün İtaliya şirkətləri ilə təmaslar qurulub, hətta ilkin sənədlər də imzalanıb. Məlumdur ki, həmin ərazilərdə enerji istehsalı üçün nəhəng potensial var. Xüsusilə də bərpaolunan enerji mənbələrindən - sudan, günəşdən və küləkdən istifadə etmək üçün geniş imkanlar mövcuddur.

Azad olunmuş ərazilərdə İtaliyanın kənd təsərrüfatının inkişafı təcrübəsindən də faydalanmaq niyyətindəyik və nəzərdə tutulan layihələr var. Məlumdur ki, İtaliya həm də dünya mədəniyyətinin mərkəzlərindən biridir. Qarabağda erməni vandallarının dağıdıb yerlə-yeksan etdiyi dini və tarixi abidələrimizin bərpası planlarını nəzərə alsaq, bu sahədə də İtaliya şirkətləri ilə geniş və çoxşaxəli əməkdaşlığa imkanlar olacaq.

Prezident İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə Romaya işgüzar səfəri və bu səfər çərçivəsində keçirilən görüşlər ölkələrimiz arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq sahəsində yeni uğurlu səhifələr açılacağından xəbər verir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Xilaskar lider

*Naxçıvan Muxtar Respublikasının siyasi həyatında Ulu Öndər Heydər Əliyevlə bağlı olan hadisələr çoxdur. Bu hadisələrin hər biri yalnız muxtar respublikanın tarixinin deyil, bütün Azərbaycanın müasir dövlətçilik salnaməsinin qürurdoğuran səhifələridir. Eyni zamanda bu tarixi məqamların hər biri Ümummilli Lider Heydər Əliyevin Naxçıvanın müdafiəsinin və xalqımızın milli müstəqillik uğrunda mübarizəsinin ayrı-ayrı və şərəfli mərhələləridir.*



Bütün bu hadisələrin sırasında Ulu Öndər Heydər Əliyevin 1991-ci il sentyabr ayının 3-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri seçilməsinin xüsusi yeri var. Məlum olduğu kimi, Heydər Əliyevin 1990-cı ilin iyul ayında Naxçıvana qayıdışı muxtar respublikanın, bütövlükdə isə Azərbaycanın siyasi-ictimai həyatında yeni proseslərin başlanması, ən əsası xalqımızın milli azadlıq mübarizəsinin yeni mərhələyə yüksəlməsi ilə əlamətdar olmuşdur. Ulu Öndər görkəmli dövlət xadimi, peşəkar siyasətçi idi. Məhz belə müdrik şəxsiyyətlər tarixin gedişatını, proseslərin nəticəsini əvvəlcədən düzgün proqnozlaşdırmağı, o cümlədən bunu dövlətin və xalqın milli maraqları naminə yönəltməyi bacarırlar. 1990-cı ilin iyul ayında Naxçıvana qayıdan Heydər Əliyev yaxşı bilirdi ki, Azərbaycanın gələcəyi müstəqil dövlətçiliyimizin yaradılması, xalqımızın azadlığı ilə bağlıdır. Ulu Öndər həm də yaxşı bilirdi ki, müstəqilliyimizin bərpa olunması və güclü dövlətimizin yaradılması onun kimi şəxsiyyətlərin fəaliyyətindən və liderlik keyfiyyətlərindən əhəmiyyətli dərəcədə asılıdır. Bu mənada Heydər Əliyev hələ Naxçıvana qayıtdıqdan sonra özünün tarixi və mənəvi missiyasını düzgün müəyyən etmiş, həm Ermənistanın ölkəmizə ərazi iddialarının baş qaldırması səbəbindən blokada vəziyyətinə düşən muxtar respublikanın müdafiəsinin təmin olunmasına, həm də xalqımızın milli azadlıq mücadiləsinin daha geniş vüsət almasına özünün layiqli və dövlətçilik tariximizdə xüsusi yer tutan töhfələrini vermişdir.

Heydər Əliyevi Naxçıvan əhalisi 1990-cı ilin iyul ayında böyük coşqu və sevgi ilə qarşılamışdı. Təsadüfi deyil ki, elə gəldiyi zamanda Heydər Əliyevin Naxçıvandan iki seçki dairəsi üzrə Azərbaycan SSR xalq deputatlığına namizədliyi irəli sürülmüşdü. Həmin ərəfədə seçiciləri ilə görüşdə Heydər Əliyevin söylədiyi "Mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir. Azərbaycan Respublikasının milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır… Bütün bu vəzifələri həyata keçirmək üçün ancaq və ancaq birlik, yekdillik lazımdır" fikri də göstərirdi ki, Ulu Öndərin məramı Azərbaycanın müstəqilliyinin təmin olunmasıdır.

*Tarixi şəxsiyyətlər haqqında fikir deməyin böyük məsuliyyəti var, mən də bunu yaxşı dərk edirəm. Ömür yolunu ömrümə işıq bildiyim böyük tarixi şəxsiyyət Heydər Əliyev haqqında hər deyilən söz onun Azərbaycan naminə yaşadığı ömrün səyyarəsi, azərbaycançılığının zərrəsi olmalıdır, onun bəşəri düşüncələrinin hardan qaynaqlandığının ünvanı olmalıdır...*

Böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycan naminə, azərbaycançılıq naminə SSRİ rəhbərliyinin 1990-cı ilin 29 yanvar gecəsi Bakıda törətdiyi qırğına etiraz edərək Sov.İKP üzvlüyündən də imtina etdi. Bu, həmin dövr üçün böyük cəsarət tələb edirdi...

Böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycana qayıtdı, yaşamaq üçün Naxçıvanı seçdi...

Naxçıvan parlamentinin yeni tərkibdə 1990-cı il noyabrın 17-də keçirilən ilk sessiyasında deputatların təklifi, istəyi və təkidi nəticəsində Ulu Öndər Heydər Əliyev iclasın sədri seçildi. Bu sessiya tarixi sessiya olacaqdı, Azərbaycanın gələcəyi həm də bu sessiyanın nəticələrindən asılı olacaqdı. Odur ki, sessiyanın gündəliyi bu baxımdan dəyərləndirildi. Sessiyada gündəliyə çıxarılan məsələlər, müzakirələrdən sonra qəbul edilən tarixi qərarlar Azərbaycanın müstəqilliyini, suverenliyini şərtləndirirdi. Belə qərarlar niyə əvvəllər qəbul edilmirdi? Çünki bu məsələləri sessiyada müzakirəyə çıxarmaq üçün dünyəvi siyasətin fenomenal lideri yox idi...

Fenomen şəxsiyyət olan Heydər Əliyev Naxçıvanda milli qurtuluşun, milli dövlətçilik quruculuğunun təməllərini özünün zəngin təcrübəsinə və bu bölgədə daim yaşadılan qədim Azərbaycan dövlətçilik ənənələrinə əsaslanaraq sessiyanın gündəliyinə çıxarmışdı...

Daha sonra tarixi şəraitin tələbi kimi 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası keçirildi. Deputatların və iclas zalının qarşısına toplaşan minlərlə vətəndaşın təkidi ilə Ulu Öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri seçilməsi, Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilməsi böyük təcrübəyə malik olan siyasi xadimin ölkənin ictimai-siyasi həyatında bilavasitə iştirakı demək idi. Hər iki seçki Azərbaycanın inkişafını təmin edəcəkdi, dünya dövlətləri sırasında nüfuzunu möhkəmləndirəcəkdi.

Ermənistanın apardığı elan edilməyən müharibə Azərbaycanda, o cümlədən Naxçıvanda ciddi çətinliklər yaratmışdı. Sənaye müəssisələrinin əvvəlki templə işləməməsi ölkədə iqtisadiyyatın nizamını pozmuşdu. Sənaye məhsulları çatışmırdı, elektrik enerjisi ölkənin tələbatını təmin etmirdi, sosial-iqtisadi durum kəskin şəkildə pisləşmişdi. Bunlar iqtisadi sahədəki vəziyyət idi.

Dövlətçilik baxımından gərəkli tədbirlərin görülməsi bu vəziyyətə dözümlüyü artırırdı. Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında" qanun qəbul etdi, bu bayraq illərdən sonra, sabiq SSRİ-nin ideoloji sıxıntısından xilas edilərək yenidən dövlət bayrağı oldu. Sonralar Ümummilli Lider demişdi: "Mən belə fikirdəyəm ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Bakıda 1991-ci il fevralın 5-də dalğalandı..."

Böyük tarixi şəxsiyyət Heydər Əliyev azərbaycançılığı dövlət siyasəti səviyyəsinə yüksəltməyə nail oldu və bu yüksəliş Azərbaycanın dünya dövlətləri tərəfindən tanınmasında, dünyanın əksər böyük dövlətlərinin Azərbaycanla ikitərəfli, çoxtərəfli müqavilələr imzalamasında olduqca gərəkli zəmanət oldu. Ulu Öndər hələ Naxçıvan Ali Məclisinin Sədri olanda azərbaycançılığın dövlətin mənəvi söykənəcəyi olması haqqında müqayisəyəgəlməz təşəbbüslər irəli sürmüş, onları böyük sevgilərlə gerçəkləşdirmişdi. Ümummilli Lider dünya azərbaycanlılarının mənəvi birliyini yaratmaq, bu birliyi siyasi və mənəvi gücə çevirmək istəyini də gerçəkləşdirdi, dünya azərbaycanlılarını Vətənə və xalqa xidmət uğrunda birləşməyə çağırdı. Bu çağırış bəşəri çağırış oldu. 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" qərar qəbul edildi. Bu qərar bütün azərbaycanlıların bir ideya ətrafında birliyinin təşkilatlanması demək idi...

Ulu Öndərin Naxçıvan Ali Məclisinin Sədri seçilməsi gənc Azərbaycan dövlətinin gələcəyinin qarantı oldu. Böyük tarixi şəxsiyyət müasir Azərbaycanın dövlətçilik memarı oldu, Azərbaycanı labüd dövlət çevrilişindən xilas etdi. Azərbaycan Ulu Öndərin böyük, dönməz xarici siyasəti nəticəsində dünya dövlətləri tərəfindən etimadla əhatələndi. Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursunu böyük sədaqətlə davam etdirir...

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

# Heydər Əliyev zirvəsi

Həmin il keçirilən seçkilərdə Azərbaycan SSR Ali Sovetinin və Naxçıvan MSSR Ali Sovetinin deputatı seçilən Heydər Əliyevin təşəbbüsləri ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet", "sosialist" sözlərinin çıxarılması, ilk dəfə Naxçıvanda üçrəngli bayrağımızın dövlət bayrağı kimi qəbul edilməsi, ilk dəfə 20 Yanvar hadisələrinə siyasi qiymətin verilməsi, o cümlədən 1991-ci ilin mart ayında SSRİ-nin saxlanılması ilə bağlı referendumun Naxçıvanda boykot olunması xalqımızın müstəqillik uğrunda mübarizəsini yeni mərhələyə yüksəldən tarixi hadisələr oldu. Bu hadisələrin hər birinin müəllifi Heydər Əliyevdir və bütün bunlar tarixmizə Ulu Öndərin dövlət və xalq sevgisinin təcəssümü kimi həkk olunub.

1991-ci il sentyabrın əvvəllərində Naxçıvan MR-in ictimai-siyasi həyatında onun müqəddəratını həll edəcək mühüm hadisələr baş verdi. Sentyabrın ilk günündə muxtar respublikanın bütün sakinləri ayağa qalxıb qüdrətli siyasətçi Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsini öz üzərinə götürməsini təkidlə tələb etdilər. Şəhərin Azadlıq meydanında bir neçə gün ara vermədən davam edən və 60-70 min nəfərin iştirak etdiyi mitinqlərdə xalq öz qəti tələbindən dönmürdü. Nəhayət, onların bu haqlı və təkidli tələbi sentyabrın 3-də keçirilən və tariximizdə özünəməxsus yer tutan Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında yerinə yetirildi. Bu həmin vaxt idi ki, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü gündən-günə genişlənir, Naxçıvan üçün təhlükə artırdı.

Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri seçilməsi milli azadlıq mübarizəsi istiqamətində fəaliyyətin və Naxçıvanın müdafiəsi ilə bağlı görülən işlərin yeni mərhələyə yüksəlməsinə səbəb oldu. Bundan cəmi 45 gün sonra isə Heydər Əliyevin uğrunda cəsarətlə mübarizə apardığı ideallar həyata vəsiqə qazandı: 1991-ci il oktyabrın 15-də Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. Bir vaxtlar Heydər Əliyevə və apardığı milli mücadiləyə qarşı çıxan qüvvələr müstəqilliyimizlə barışmalı oldular. Heydər Əliyevin Naxçıvanda ucaltdığı Xalq Cümhuriyyətinin bayrağı isə dövlətimizin milli atributu kimi təsbit edildi.

Həmin dövrdə Ermənistanın hərbi təcavüzü nəticəsində Naxçıvan blokadaya alınmış, muxtar respublikanın iqtisadi çətinlikləri çoxalmışdı. 1991-ci ilin dekabr ayından Naxçıvana təbii qazın verilməsi, 1992-ci ilin iyulundan isə elektrik enerjisinin ötürülməsi dayanmışdı. Nə Mütəllibov iqtidarı, nə də AXC-Müsavat cütlüyü muxtar respublikanın mövcud ağır vəziyyətini qismən də olsa yaxşılaşdırmaq üçün heç bir əməli tədbir görməyə maraqlı olmadılar. Belə bir vəziyyətdə Heydər Əliyevin siyasi liderlik keyfiyyətləri, Türkiyə və İranla yaratdığı əlaqələr blokada vəziyyətində olan muxtar respublikanın iqtisadi çətinliklərinin dəf olunmasında böyük rol oynadı. Həmin çətin dövrdə Ulu Öndərin Naxçıvan qarşısında digər tarixi xidməti isə muxtar respublikanın etibarlı müdafiəsinin təşkili oldu. Heydər Əliyev Naxçıvanı qorudu, burada mütərəqqi ordu quruculuğunu həyata keçirdi. Hətta bütün Azərbaycan ərazisində ilk dəfə Naxçıvanda keçmiş sovet qoşunlarının bölmələrinin çıxarılmasına Heydər Əliyevin sayəsində nail olundu.

Bütün bunlara görə yalnız naxçıvanlılar deyil, bütün xalqımız Heydər Əliyevə məhəbbət və rəğbətlə yanaşırdı. Bu baxımdan 1992-ci ildə Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması, 1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi Ulu Öndərə olan ümumxalq sevgisinin və milli etimadın təcəssümü idi.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz tarixinin ən qüdrətli və şərəfli dövrünü yaşayır. Azərbaycanın inkişafı, Vətən müharibəsindəki zəfər möhtərəm İlham Əliyevin müdrik və qətiyyətli siyasətinin təcəssümüdür. Bütün bunların fonunda Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü daha da möhtəşəm görünür. Çünki fəaliyyətinin Naxçıvan dövrü də daxil olmaqla Heydər Əliyev özünün qətiyyətli siyasi addımları və cəsarətli milli mübarizəsi ilə Azərbaycanı bugünkü uğurlara və qələbələrə aparan yolların möhkəm təməlini yaratmışdır.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***

# Ulu Öndərin Naxçıvan Ali Məclisinin Sədri seçilməsi müstəqillik yolunun əsasını qoydu

*Müasir dövlətimizin qurucusu Ulu Öndər Heydər Əliyevin adı Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Ölkəmizin suverenliyinin qorunmasında, müstəqilliyimizin əbədiliyinin təmin edilməsində Ümummilli Liderimizin nümayiş etdirdiyi qətiyyət dövlətçiliyimizin inkişafına əsaslı təsir göstərdi.*

Hələ 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidi ilə Ulu Öndərin Ali Məclisin Sədri seçilməsi Azərbaycanın müstəqillik yolunun əsasını qoydu. Ümummilli Liderin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə və Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilməsi böyük təcrübəyə malik olan qüdrətli siyasətçinin ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etməsinə meydan açdı.

Həmin dövrdə Naxçıvan blokada vəziyyətində olsa da, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə bu bölgəmizdə sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və tərəqqinin əldə olunması üçün əhəmiyyətli tədbirlər görüldü. Muxtar respublikada aqrar islahatlar reallaşdırıldı, infrastrukturun inkişafı yönündə xüsusi işlər həyata keçirildi. Digər tərəfdən, Türkiyə və İranla qarşılıqlı əməkdaşlığa və tərəfdaşlığa əsaslanan ilk rəsmi təmaslar yaradıldı. Blokada şəraitində olan muxtar respublikanın inkişafı və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələrin formalaşdırılması, eləcə də inkişafı yönündə mühüm addımlar atıldı.

Ulu Öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi müasir Azərbaycanın dövlətçilik tarixinin ən mühüm səhifələrindən birini təşkil edir. Siyasi fəaliyyətinin Naxçıvan dövründə Ulu Öndər Heydər Əliyev gördüyü işlər, atdığı tarixi əhəmiyyətli addımlarla muxtar respublikanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etdi. Ulu Öndərin Ali Məclisin Sədri vəzifəsində işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında - Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləməsi və 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" qərarın qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir.

Sonrakı dövrdə Ulu Öndərin xalqın təkidli tələbi ilə Bakıya gəlməsi, uçurumun bir addımlığında olan dövlətçiliyimizi xilas etməsi və möhkəmləndirməsi insanların rifahının yaxşılaşdırılması uğrunda ardıcıl fəaliyyətinə yol açdı. Bu istiqamətdə məqsədyönlü mübarizə aparan və uğurlu, dayanıqlı nəticələrə nail olan Ümummilli Lider Heydər Əliyevin dahiyanəlik və uzaqgörənliklə işləyib hazırladığı inkişaf siyasətinin ən böyük uğurlarından biri də başlanan işlərin inamla davam etdirilməsidir. Daha dəqiq desək, Heydər Əliyev dövlətçilik məktəbinin layiqli yetişdirməsi olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndər tərəfindən iqtisadi-siyasi, ümumiyyətlə, bütün sahələrdə təməli atılmış işləri daha da inkişaf etdirdi. Qısa müddət ərzində Azərbaycanın dövlət büdcəsi bir neçə dəfə artdı, ölkəmizdə ordu quruculuğu və digər sahələrdə yüksək inkişaf əldə olundu. 2020-ci ilin Vətən müharibəsi ilə Azərbaycanın ərazi bütövlüyü təmin olundu.

***Əsli KAZIMOVA,***
***Azərbaycan Sosial Rifah***
***Partiyasının sədri***

# Milli Məclisdə xarici KİV nümayəndələri ilə görüş olub



Sentyabrın 2-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, deputatlar Nigar Arpadarai və Məzahir Əfəndiyev BMT-də akkreditə olunmuş bir qrup xarici KİV nümayəndəsi ilə görüşüblər.

Qonaqları salamlayan Səməd Seyidov onlara Milli Məclisin fəaliyyəti barədə məlumat verib, Azərbaycanın beynəlxalq əlaqələrindən, xarici siyasətindən, dünya ölkələri və qonşuları ilə münasibətlərindən danışıb. Komitə sədri 44 günlük Vətən müharibəsində qələbəmiz, işğal dövründə Ermənistanın törətdiyi soyqırımı və vandalizm aktları, azad edilmiş ərazilərdə Azərbaycanın apardığı quruculuq işlərindən söz açıb, ölkəmizin Ermənistanla münasibətlərinin mövcud durumundan, aparılan sülh danışıqlarından bəhs edib.

Nigar Arpadarai və Məzahir Əfəndiyev də qonaqları salamlayaraq onların işğaldan azad edilmiş ərazilərə səfərlərinə toxunublar. Deputatlar bildiriblər ki, müharibədən sonrakı dövrdə Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanması və münasibətlərin normallaşdırılması ilə bağlı ardıcıl siyasət həyata keçirir. Millət vəkilləri regionda kommunikasiyaların açılmasının və əməkdaşlığın yaradılmasının Ermənistan da daxil olmaqla, bütün bölgə dövlətlərinin maraqlarına cavab verdiyini qeyd ediblər.

Xarici media nümayəndələri 44 günlük Vətən müharibəsində Azərbaycanın zəfəri ilə bağlı təbriklərini çatdırıblar, bölgədəki mövcud vəziyyət, regional əməkdaşlıq, sülhün inkişaf etdirilməsi və digər mövzularla bağlı suallarını səsləndiriblər.

Görüşdə deputatlar qonaqları maraqlandıran sualları cavablandırıblar.

***Aydan XƏLİLOVA, "Azərbaycan"***

# Şuşada "Vətəndaş cəmiyyətində həmkarlar ittifaqlarının rolu" mövzusunda konfrans keçirilib

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) və tabeliyində olan üzv təşkilatlar tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Vətəndaş cəmiyyətində həmkarlar ittifaqlarının rolu" mövzusunda konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, əvvəlcə respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev konfransda məruzə ilə çıxış edərək 44 günlük Vətən müharibəsindən, Azərbaycan Ordusunun Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı şanlı qələbədən, işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərindən, qurumun fəaliyyətindən danışıb. Bildirib ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası 16 min 135 həmkarlar ittifaqı təşkilatı və təqribən 1 milyon 121 min 946 həmkarlar ittifaqı üzvü olmaqla, Naxçıvan Muxtar Respublikasının və 26 Sahə həmkarlar ittifaqı birliklərini özündə birləşdirir və onların əmək, sosial-iqtisadi hüquq və mənafelərini təmsil və müdafiə edir.




Diqqətə çatdırılıb ki, dünyada mövcud olan bütün həmkarlar ittifaqlarının proqramlarında, nizamnamələrində, məramnamələrində qeyd olunub ki, bu birliklərin fəaliyyətinin mərkəzində insan faktoru dayanır və onların sosial problemlərinin həllinə, iqtisadi maraqlarının təmin olunmasına, əmək sahəsində bütün qanuni hüquq və mənafelərin qorunmasına xidmət edir. Bu da insan hüquq və azadlıqlarının təminatı baxımından demokratiyanın prinsip və vəzifələrinə tam uyğun olmaqla, vətəndaş cəmiyyətinin formalaşmasına və mütərəqqi istiqamətdə inkişafına mühüm töhfədir. Məhz buna görə də hər bir cəmiyyətdə vətəndaş cəmiyyətinin formalaşması üçün həmkarlar ittifaqlarının yaradılması zərurətə çevrilmişdir. Ölkəmizdə həmkarlar ittifaqları yarandığı və formalaşmağa başladığı tarixdən bu günə kimi dövrün tələblərinə uyğun şəkildə əsas ideologiyasına sadiq qalaraq funksiyalarını uğurla və mütəşəkkil səviyyədə davam etdirib, böyük inkişaf yolu keçib.

Qeyd olunub ki, AHİK işəgötürənlə əməkdaşlıq çərçivəsində ittifaq üzvlərinin mənafelərinin təmsil olunmasını, kollektiv danışıqların aparılmasını, kollektiv müqavilələrin, sazişlərin bağlanmasını və onların yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsini özünün əsas vəzifələrindən hesab edir və bu sahədə ixtisaslaşmış ictimai qurum kimi cəmiyyətdə özünü təsdiqləyib. Bununla yanaşı, ittifaq üzvlərinin, onların ailə üzvlərinin sağlamlığına qayğı göstərilməsi, onların pensiya təminatının, sanatoriya, kurort müalicəsinin və istirahətlərinin təşkil edilməsi, bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi, əməyin mühafizəsi, ətraf mühitə, sağlamlığa mənfi təsir göstərən faktorların aradan qaldırılması, üzvlərin sağlam və təhlükəsiz iş şəraiti ilə təmin edilməsinə ictimai nəzarətin təşkili istiqamətində ardıcıl olaraq əhəmiyyətli və effektiv işlər görülür.

Sonra çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev konfransın əhəmiyyətini vurğulayıb. Bildirib ki, konfransda yerlərdə insanların həmkarlar ittifaqlarına əlçatanlığı müzakirə ediləcək.

Konfransda Neft və Qaz Sənayesi İşçiləri HİRK-in sədri Cahangir Əliyevin, Dəmiryolçuların Müstəqil HİRK-in sədri Fəzail Bağırovun, Azərbaycan Milli Elmlər Akademiyası İşçiləri Azad Hİ-nin sədri Habil Qurbanovun və Səhiyyə İşçiləri HİRK-in sədr müavini Cavid Məmmədovun çıxışları dinlənilib.

Çıxışlarda "Vətəndaş cəmiyyəti sistemində həmkarlar ittifaqlarının rolu" mövzusu ilə yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin ali sərkərdəliyi ilə 44 günlük müharibədə qazanılan qələbədən, Şuşa şəhərində aparılan genişmiqyaslı bərpa-quruculuq işlərindən, Qarabağın yenidən qurulmasından, Laçının azad edilməsi və başqa mühüm məsələlərdən də danışılıb.

Sonda AHİK Şuşa konfransı iştirakçılarının Azərbaycan Prezidenti İlham Əliyevə müraciəti qəbul edilib.

Konfrans yekunlaşdıqdan sonra iştirakçılar Şuşa şəhəri ilə tanış olublar.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Sentyabrın 2-də Baş prokuror Kamran Əliyev Xaçmaz Rayon Prokurorluğunun inzibati binasında Xaçmaz, Quba və Qusar rayonlarının sakinlərini qəbul edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 30 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş prokuror Quba və Qusar rayon prokurorluqlarına gedib, əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

* * *

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev sentyabrın 2-də Şəkidə həmin rayonun sakinlərinin müraciətini dinləyib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, müraciət edənlərin bir qismi şəhid ailələrinin üzvləri və müharibə veteranları olub.

Vətəndaşların Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin səlahiyyət dairəsinə aid müraciətləri cavablandırılıb, müraciətlərdə əksini tapan məsələlərin həlli ilə əlaqədar tədbirlər görülüb.

# "TurAz Qartalı - 2022" təlimində iştirak edəcək Türkiyə hərbçiləri və aviasiya vasitələri ölkəmizdədir





"TurAz Qartalı - 2022" birgə taktiki-uçuş təlimində iştirak edəcək Türkiyə Hərbi Hava Qüvvələrinin şəxsi heyəti və aviasiya vasitələri ölkəmizə gəlib.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 5-dən başlayacaq təlimdə iki ölkənin Hərbi Hava Qüvvələrinin birgə fəaliyyətlərinin planlaşdırılması, qarşılıqlı əlaqə və döyüş uzlaşmasının öyrənilməsi, eləcə də axtarış-xilasetmə tədbirlərinin icrası və digər tapşırıqlar yerinə yetiriləcək.





# Türkiyənin Anadolu Agentliyi Laçın rayonundan xüsusi reportaj hazırlayıb





"Aradan illər keçməsinə baxmayaraq, 1992-ci ildə baş verən işğalın izlərini unutdurmayan Laçın şəhərində bəzi evlər yaşayış səviyyəsini saxlasa da, çox sayda məhv edilmiş və yararsız hala salınan evlər var. Artıq Azərbaycanın nəzarətinə keçən Laçında yerləşən Azərbaycan Ordusu həm bu bölgədəki strateji nöqtələrdəki mövqelərini gücləndirir, həm də minalardan təmizləmə fəaliyyəti həyata keçirir".



AZƏRTAC xəbər verir ki, Türkiyənin Anadolu Agentliyinin Laçın rayonundan hazırladığı xüsusi reportaj bu ifadələrlə başlanır.

Məlumat verilir ki, yaxşı vəziyyətdə olan binaların əksəriyyəti şəhəri tərk edən ermənilər tərəfindən dağıdılıb. Şəhərin bir çox məhəllələri uzun müddət normal həyatdan məhrum olduğu üçün ot basıb.

İkinci Qarabağ savaşının nəticələrinə uyğun olaraq Ermənistanın imzalamağa məcbur olduğu kapitulyasiya aktı əsasında Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarıldığını xatırladan müəllif təəssüflə məlumat verir ki, ermənilər Laçın bölgəsinin əsas hissəsini 44 günlük Vətən müharibəsindən sonra minalayıb, bölgəni tərk edərkən evlərə od vurublar.

Reportaj bölgədən lentə alınmış orijinal videomaterial və fotolarla birlikdə türkdilli ictimaiyyətə təqdim olunub.

# REGİONLAR



## Tovuzda Vətən müharibəsi şəhidlərinin ordenləri ailələrinə təqdim olunmuşdur

**Dövlət başçısının 25 iyun 2022-ci il tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında" sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuş Vətən müharibəsi şəhidləri - əsgər Mirzəyev Eltac Fizuli oğlu və əsgər Poladov Elçin Adil oğlunun ordenləri şəhidlərin ailə üzvlərinə təqdim olunmuşdur.**





Tovuz Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rəşad Zeynalov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Tovuz rayon şöbəsinin rəisi Xalid Abasov, RİH-in şöbə müdiri Oruc Məmmədov şəhidlərin evində olmuş, ailə üzvləri ilə görüşüb ordenləri onlara təqdim etmişlər. Şəhid ailələri ilə söhbət zamanı qeyd edilmişdir ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun 44 günlük Vətən müharibəsində böyük qəhrəmanlıq göstərərək qazandığı tarixi qələbə xalq-ordu birliyi sayəsində, əsgərlərimizin qanı-canı hesabına əldə edilmişdir.

## Ağstafada müharibə iştirakçıları və qazilərlə görüş keçirilmişdir

**Görüşdə çıxış edənlər Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbədən söz açmışlar.**

Bildirilmişdir ki, şanlı qələbəmizdən dərhal sonra düşmən tapdağından azad olunmuş torpaqlarımızda nəhəng bərpa işlərinə başlanılmışdır.

Görüşdə qazilər və müharibə iştirakçıları çıxış edərək Vətənimizin azadlığı, suverenliyi uğrunda keçdikləri şərəfli döyüş yolundan, savaş meydanında göstərdikləri şücaətdən danışmış, onlara dövlət tərəfindən göstərilən diqqətə görə dövlət başçısına minnətdarlıqlarını bildirmişlər. Görüşün sonunda qazilərin və müharibə veteranlarının arzu və təklifləri dinlənilmiş, qaldırılan məsələlərin həlli üçün qeydiyyat aparılmışdır.

## Şəhid Elgün Səmədovun xatirəsi doğum günündə əbədiləşdirilmişdir

**Şəmkir rayonunun Mehirli kəndində Vətən müharibəsi şəhidi Elgün Səmədovun xatirəsinə inşa olunan abidə-bulaq kompleksinin açılışı olmuşdur.**




Şəhid ailələrinin, qazilərin, eləcə də müharibə veteranlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra ölkəmizin ərazi bütövlüyünün təmin olunması naminə canlarını qurban verən şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.

Rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev çıxış edərək Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi, Azərbaycan əsgərinin rəşadəti, xalqımızın birliyi, həmrəyliyi nəticəsində Ordumuzun 44 gün ərzində döyüş meydanında göstərdiyi igidliklərdən danışmış və qeyd etmişdir ki, 30 illik münaqişəni 44 günə sona çatdıran Azərbaycan Ordusu nəyə qadir olduğunu bütün dünyaya göstərdi.

Tədbir məktəblilərin Vətənə, ordumuza, şəhidlərimizə həsr olunan şeirlər söyləməklə başa çatmışdır.

Açılış mərasimi başa çatdıqdan sonra rayon icra hakimiyyətinn başçısı şəhid Elgün Səmədovun ailə üzvlərinə baş çəkmiş, onların qayğıları ilə maraqlanmışdır.

***Sabir ƏLİYEV,* *"Azərbaycan"***

## Naxçıvanda ənənəvi məktəbli yarmarkaları açılıb

Naxçıvan Muxtar Respublikası Təhsil və İqtisadiyyat nazirliklərinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə yeni tədris ili ərəfəsində Naxçıvan şəhərindəki mərkəzi bazarda ənənəvi məktəbli yarmarkasının açılışı olub.

AZƏRTAC-ın yaydığı məlumata görə, tədbirdə bildirlib ki, hazırda muxtar respublikamızda məktəbli geyimləri, köynək, ayaqqabı istehsal edən yüngül sənaye müəssisələri fəaliyyət göstərir. Ümumtəhsil məktəblərinin şagird və müəllimlərinin geyim formalarına olan tələbat diyarımızda mövcud olan tikiş müəssisələrinin, o cümlədən "Zümrüd Tekstil" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi yüksəkkeyfiyyətli məhsullar hesabına ödənilir. 22 sahibkarlıq subyektinin iştirak etdiyi yarmarkada 50 adda dərs ləvazimatları, məktəbli və idman formaları, məktəbli çantası və ayaqqabıları və başqa ləvazimatlar alıcılara münasib qiymətlərlə təklif olunur.

Daha sonra qeyd olunub ki, ümumtəhsil məktəblərində sürətli internetə çıxışı olan kompüter və elektron lövhələrin quraşdırılması, zəngin fonda malik kitabxanalar, laboratoriyalar və fənn kabinələrinin yaradılması muxtar respublikada təhsil alan gənclərimizin intellektual potensialının yüksəlməsinə, onların bilik və bacarıqlarının təkmilləşdirilməsinə öz töhfəsini verir. Təhsil sahəsində daha aktiv, məhsuldar, tənqidi düşünməyi bacaran, bildiklərini ortaq bir istiqamətə yönəldən şagirdlərin formalaşmasına stimul verən və təhsilin yeni istiqaməti sayılan STEAM təhsil metodunun muxtar respublikanın bütün ümumtəhsil məktəblərində, təhsil ocaqlarında yaradılması zəruri hala çevrilib. Bununla yanaşı, hazırda 17 təhsil müəssisəsində binaların tikintisi və ya yenidən qurulması davam etdirilir. 2022-2023-cü tədris ilindən isə Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Lisey, Distant Təhsil Mərkəzi, 8 nömrəli uşaq bağçası-körpələr evi və STEAM Təlim-Tədris Mərkəzi Təhsil Nazirliyinin şəbəkəsinə qoşulacaq.

Məktəbli yarmarkaları sentyabrın 14-dək davam edəcək.

## Cəlilabadda toxum sərgi-satış yarmarkası təşkil edilib

Azərbaycanın bölgələrində toxum sərgi-satış yarmarkaları davam edir. Növbəti yarmarka Cəlilabad rayonunda təşkil olunub.



Yarmarkada Aqrar Xidmətlər Agentliyinin müvafiq qurumları, Aqrar Kredit və İnkişaf Agentliyi, "Aqroservis" ASC, Dövlət Toxum Fondu, Aqrar Sığorta Fondu, Azərbaycan Toxumçular Assosiasiyası, yerli toxum istehsalçıları, elmi-tədqiqat institutları, toxum istehsalı və satışı ilə məşğul olan şirkətlər, fermerlər iştirak ediblər.

Tədbirdə çıxış edən Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısının müavini Nazim Şükürov bildirib ki, ölkədə əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir: "Kənd təsərrüfatının əsasını təşkil edən taxılçılıq bu sahədə mühüm əhəmiyyət kəsb edir. Bu gün Cəlilabad rayonunda keçirilən toxum sərgi yarmarkasında fermerlərə müxtəlif toxum sortları təqdim edilir. Düşünürəm ki, bu kimi yarmarkaların müxtəlif bölgələrdə keçirilməsi toxum bazarının daha da inkişafına gətirib çıxaracaq".

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin sədri Mirzə Əliyev yarmarkanın əhəmiyyətinə toxunaraq bildirib ki, bu gün Cəlilabadda keçirilən yarmarkada yerli arpa, buğda və tərəvəz toxumları nümayiş etdirilir. Sərgi çərçivəsində fermerlərə sertifikatlı toxumun əldə olunması, sortların regionların torpaq-iqlim xüsusiyyətlərinə uyğun düzgün seçilməsi, toxumların təmizlənməsi, kondisiyaya çatdırılması barədə məlumatlar verilir. Fermer və torpaq mülkiyyətçilərinin sertifikatlı toxuma əlçatanlığı təmin olunur. Payızlıq buğda və arpa səpinini optimal müddətdə başa çatdırmaq üçün fermerlərin vaxtında sertifikatlı toxumla təmin olunması vacib sayılır.

Tədbir iştirakçıları daha sonra yarmarkanın fəaliyyəti ilə tanış olub, fermerlərlə görüşüb, stendlərə baxış keçiriblər.

Qeyd edək ki, növbəti toxum sərgi-satış yarmarkası sentyabrın 8-də Hacıqabul rayonunda təşkil olunacaq.

***Seyran CAVADOV,* *"Azərbaycan"***

## Bağbanlı məktəbi üçün yeni bina tikilir

Quba rayonunun Bağbanlı qəsəbəsində 54 il əvvəl inşa edilən məktəbin yerində yeni məktəb binasının tikintisinə başlanılıb.

Köhnə bina şagirdlərin normal təhsil almalarına imkan vermirdi. Buna görə də istismar müddətini başa vuran binanın yerində yeni, müasir məktəbin tikintisinə qərar verilib.

Hazırda köhnə bina sökülür. Yaxın günlərdə tikintisi başlanacaq yeni binanın qısa müddətdə təhvil verilməsi nəzərdə tutulur. Təhsil ocağı müasir istilik və işıqlandırma sistemləri ilə təchiz ediləcək.

Qeyd edək ki, məktəbin 360 şagirdi yeni məktəb binasının tikintisi başa çatanadək dərsi qəsəbədə yerləşən Folklor evində keçəcək.

***Akif ƏLİYEV,* *"Azərbaycan"***

## Ağsuda heyvandarlıq məhsullarının istehsalı artıb

Ağsu rayonunda kənd təsərrüfatının aparıcı sahələrindən olan heyvandarlıqda məhsul istehsalı cari ilin səkkiz ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə bütün sahələr üzrə artıb.

Rayon Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, səkkiz ayda diri çəkidə ət istehsalı 48 ton artaraq 3932 tona çatıb. Bu müddətdə süd istehsalı 83 ton artıb və 20 min 865 ton olub. Habelə 9 milyon 416 min ədəd yumurta, 322 ton yun istehsal olunub, artım müvafiq olaraq 377 min ədəd və 4 ton təşkil edib.

Qeyd edək ki, rayonda hazırda 39 min başdan çox qaramal, 140 min başdan çox davar bəslənilir.

# Günəş alov, ulduzlar leysan kimi

**Kənd qayğıları**



Yer-göy od tutub yanır, günəş alov kimi adamın üz-gözünü qarsıdır. İstirahət günü paytaxtın közərən təndir kimi istisi göyə qalxan küçələrindən kəndə uz tuturuq. Həmişə belə olub, şəhər yandırıb-yaxanda ata yurduna pənah aparmışıq.

Amma yarım əsrdən artıq getdiyimiz yolda çox şey dəyişib. Nə insanlar əvvəlkidir, nə də kənd o kənddir. 50 il əvvəl dumduru sularında çimdiyimiz Quru çay quruyub. Çayın yatağında gəzirsən, sudan yana qəribsiyən daşlara ürəyin yanır, mehin o yan bu yana sürüklədiyi salafan paketlər sənə bir də buralara suyun gəlməyəcəyini deyir. Amma qardaşım deyir ki, bu il yağışlar olduğundan çayın yatağına bir neçə dəfə sel gəldi.

Təbiət və zaman hər şeyi dəyişir. Biz o biz deyilik, insanlar da quruyan çay kimi koronadan sonra bir qədər fərqlidirlər, hərə bir cür içinə çəkilib, ehtiyatlanır. Amma hələ ki, yaxın qohum-əqrəbanın qapısını döyə bilirsən, hələ ki, ata yurduna baş çəkib, xatirələrin ətəyindən tutub keçmişə adlamaq olur.

Ancaq sonuncu dəfə kəndimizə gələndə kölgəliklər də elə od tutub yanırdı ki, xatirələrin əlindən tutmağa macal da tapmadıq. Arzuladığımız dağ havasına da tamarzı qaldıq. Sərinlik sanki kənd-kəsəkdən didərgin düşmüşdü. Bağımızda ağacların yarpaqları da su deyib yanırdı. Kənd böyüyüb, evlərin sayı çoxalıb, amma Qusarçaydan arxa gələn su artmayıb. Həyət-bacanı suvarmaq, nəsə əkib becərmək o qədər asan deyil. 50 il əvvəl kəndin 70 evi vardı, nə istəsəydin əkib becərə bilərdin, qobudan gələn su da qapıdan kəsilməzdi. İndi evlərin sayı 3-4 dəfə artıb. Su çatmır. Gərək qobunun üstünə çıxasan, növbə tutasan, bir neçə gün vaxt itirəsən ki, həyətinə su gətirə biləsən. Hamı başa düşür ki, su bütün dünyada tükənir, kəndimiz də istisna deyil.

Nə qədər çətin olsa da, insanlar yenə nikbindirlər - əkib-becərir, güzəranları üçün əziyyət çəkirlər. Sadəcə 50 il əvvəl bağ salmaq çətin deyildi, cır əkər, yerli meyvələrdən qələm vurardılar. Cəmi bir-iki dəfə dərman atardılar. Bağ da baxdıqca bəhəri ilə sevindirərdi. Sarıturş şəkərin dərmanı idi (yadıma düşür ki, onda heç kəndimizdə şəkər xəstəsi də yox idi), qəndisinabın iyinə heç fransız ətirlərinin qoxusu çatmazdı. Cırhaçının təndirdə bişəni də, kompotu da ələ düşməzdi. İndi alma bağına ildə 10-15 dəfə müxtəlif dərmanlar atılır. Kənddə qohum-əqrəba gileylənir ki, indi torpaqdan nəsə almaq üçün sözün əsl mənasında canını da qoymalısan, pulunu da. Bu xərc də o qədər az deyil, hər adamın gücü çatmaz.

Axşamtərəfi kəndçimiz Hüseynlə danışa-danışa "doqqaz" deyilən yerdən keçib, Vələsi dərənin üstündəki meyvə bağlarına gedirik ki, bəlkə meşə tərəf bir az sərin ola. Kolxoz dövründə burda darvaza qoyulmuşdu, hamımız "doqqaz" deyirdik.

- Özəlləşmə oldu, torpaq camaata paylandı, - deyir Hüseyn. - Amma adamlar torpaq aktlarını əllərinə alan kimi birinci ağacları çıxardılar, bağları şumlayıb taxıl əkdilər. Başqa yolları da yox idi, ağaclar qocalmışdı, bəhərdən düşmüşdü. Amma indi yenə sağımız da, solumuz da görürsən ki, təzə bağlardır, camaat əkib-becərir.

Kənddən aralanıb bağların içi ilə Sarı meşəyə tərəf gedirik. Günəş qüruba əyildikcə dağların sərin havası tədricən geri qayıdır. Biz də alatoranlıqda Hüseynin gilas bağına gəlib çatırıq. Kiçik bir koması, iki kətili var. Ağzıüstə qoyulan yeşik masanı əvəz edir. Köhnə lampası, komanın yanında ocaq da öz yerində. Çaydanı doldurub çay qoyur. Sonra bağa suyu açır. Amma suyun səsi gəlmir, damcı suvarmasıdır, su səssiz-səmirsiz borularla gedir.

- Gündüz niyə suvarmırsan ki, - deyə soruşuram.

- Bu istidə olmaz, gecə sərin düşəndə bağı sulamaq daha faydalıdır. İndi qələmlər suyu rahat içə biləcəklər.

Çaydan pəsdən zümzümə edir. Səmada sayrışan ulduzlara baxanda göylərin rütubətinə sevinirsən. Lap uzaqda dağlarda ildırım çaxır. Sənə elə gəlir ki, zərrə kimi kiçik ulduzlar da leysana çevrilib, 30-40 kilometr uzaqlıqdakı dağlardan gələn zəif göy gurultusunun sədaları altında başına leysan kimi yağacaqlar. Yarpaqların xəfif xışıltısı da yağışın bəstəsi kimi gəlir insana. Təbiət ağlına və ruhuna hakim kəsilir. Yadıma əmimin gözlərini itirən arvadı düşür. Belə axşamlarda Qızılgül əmidostu gözlərini gecənin aynasına söykəyib deyərdi: "Ay doğub, yoxsa buludlar göyün üzünü örtüb?" Bir də ayaqları ilə xalçanın rənglərini, təzə-köhnəliyini ayırardı.

Bir azdan Hüseyn qayıdıb gəlir, lampanı yandırıb çayı dəmləyir. Dərdini açır, deyir ki, indiki zamanda bağ saxlamaq hər igidin işi deyil. Amma bilirəm ki, Hüseyn bu yükü çəkməyə vərdiş olub, öz bağına elə alışıb ki, gəlib hər gün dəyməsə, bağı dolanmasa, ürəyi sakitləşməz. Bu bağı 2013-cü ildə 2 hektar sahədə salıb. 9 ildir ki, baxır. Nəyi vardısa bağa qoyub, evini də neçə ildir ki, tikib qurtara bilmir, maşınını da satıb.

Tələsmirik, gedən yerimiz də yoxdur, oturub mobil telefonun kalkulyatorunda təxmini də olsa Hüseynin xərclərini hesablayırıq. Perimetri 640 metr olan bağın çəpərə alınmasına fəhlə pulu, setka və dirəklər qarışıq 4-5 min dollar (manatın dəyəri dəyişdiyi üçün xərcləri dollara çevirmişik) arasında xərc çəkilib. İki hektar sahəyə biri 7 dollardan 700 gilas qələmi alınıb. Gilas qələmi çox bahadır, hətta indi 15 dollara da gilas qələmi var. Getdikcə hər şey bahalaşır. Bu da 5 min dollar. Bir ağacı quyu qazıb əkmək bir manata başa gəlir. Fəhlələrin yeməyi ilə birlikdə bu da 1000 dollara yaxınlaşır. Hər il iki hektar gilas bağına qulluq etmək 5000 dollara oturur üstünə. İki hektara damcı suvarma sisteminin quraşdırılması, su anbarının qazılması, motorun qoyulması da 4 min dollardan az pul aparmayıb. Bundan başqa, hər il kəndə su gələn qobunun təmizlənməsinə də 1000 dollara yaxın pul xərcləyir. Camaata da əl tutur, öz işini də ehtiyatlı görür.

Hüseynə deyirəm ki, bütün xərcləri haradasa 15 min edir. Hər il də qulluğa 5 min. Bu da təxmini 45 min edir.

- Bir az çox da ola bilər, az da... Təxminən belədir, - deyə Hüseyn razılaşır. - Mən bağı salanda deyirdilər ki, 3 ilə bəhərə düşəcək, amma 5-6 ildən sonra bəhər verdi. Bir də bilirsənmi, yüz işin dalınca qaçırıq, bir əldə dörd-beş qarpız tuturuq, o da alınmaz ki... Kənd adamıyıq, əkib becəririk, amma torpağa hələ yadıq, meyvəçiliyin incəliklərini bilmirik. Mənim səhvlərim olmasaydı bir neçə il xeyrimi də itirməzdim. 2-3 ildir ki, bağ bəhərə düşüb. Amma yenə də pul yeyir. Hər il 20-30 qələm quruyur. Çəkdiyim xərcləri geri almağa yenə 3-4 il vaxt lazımdır.

Bu arada qonşu bağdan Nəriman əmioğlu işığımızı yanan görüb çay içməyə gəlir. Soruşuram ki, əmioğlu, sən nə qazandın bu il?

- Mən neçə ildir ki, eyni pulu qazanıram. Min şükür, pis deyil. Gilənarı 1 manat 30 qəpikdən satmışam. Mənim bağım nə varlanmağa qoyur, nə də kasıb qalmağa imkan verir. Adamlar qəribədirlər, alma boyda gilas axtarırlar. Amma anlamırlar ki, gilənar bütün meyvələrin şahıdır, həm də faydalıdır. Əkəndə elə bilirdim qapımda almağa növbəyə dayanacaqlar. Növbə-zad yoxdur. Ruzunu verən Allahdır, olana min şükür.

***Bahadur İMANQULİYEV,* *"Azərbaycan"***

# Daşkəsəndə şəhid ailələri və qazilərə xüsusi diqqət göstərilir





**Ölkəmizin bütün bölgələrində olduğu kimi, Daşkəsəndə də şəhid ailələrinə, qazi və müharibə iştirakçılarına xüsusi diqqət və qayğıkeşliklə yanaşılır. Keçirilən görüşlərdə onların arzu və istəkləri dinlənilir, problemləri həll edilir.**

Şəhidlərin adlarının əbədiləşdirilməsi istiqamətində də tədbirlər görülür. Elə bu günlərdə şəhidlərlə bağlı daha bir müqəddəs yerin - şəhid ailələri və qazilər üçün "Görüş yeri"nin və Daşkəsən şəhidlərinin Xatirə guşəsinin açılışı olmuşdur. Açılışda Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu, Qafqaz Müsəlmanları İdarəsi sədrinin Qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin nümayəndələri, qazilər, müharibə veteranları, eləcə də rayon ağsaqqalları iştirak etmişlər.

Tədbirdə çıxış edən Əhəd Abıyev Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsinin xalqımızın qəlbində daim yaşayacağını diqqətə çatdırmışdır. Şəhid ataları adından Etibar Cəfərov, İlham Cabbarov, şəhid anaları adından Kifayət Haqverdiyeva, Qızbəs Abbasova, qazilər adından Ceyhun Əliyev çıxış edərək onlara göstərilən həssas münasibətə, yüksək diqqətə görə minnətdarlıqlarını bildirmişlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Laçında döyüş növbətçiliyi yüksək səviyyədə təşkil edilib

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, azad edilmiş ərazilərdə döyüş növbətçiliyinin təşkili ilə bağlı həyata keçirilən tədbirlər davam etdirilir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Laçın rayonunda Azərbaycan Ordusunun bölmələri tərəfindən aparılan dəqiqləşdirmələr nəticəsində nəzarətə götürülən strateji əhəmiyyətli Üçdik yüksəkliyində döyüş növbətçiliyi yüksək səviyyədə təşkil edilib.

Burada şəxsi heyətin gecə və gündüz nümunəvi xidmət etməsi, döyüş qabiliyyətinin və döyüşə hazırolma vəziyyətinin daim yüksək səviyyədə saxlanılması məqsədilə bütün zəruri tapşırıqlar icra olunur.

Azad olunmuş ərazilərdə dislokasiya olunan bölmələrin hərtərəfli təminatı və qoşun xidmətinin təşkili istiqamətində həyata keçirilən kompleks tədbirlər davam edir.

# Ankarada keçirilən festivalda "Azərbaycan otağı" böyük maraqla ziyarət olunur






**Ankaranın Etimesgut rayonu tərəfindən 24-cü Beynəlxalq Anadolu Günləri Mədəniyyət və Sənət Festivalı təşkil olunub. Sentyabrın 4-də festivalın sonuncu günü keçiriləcək Azərbaycan günlərində zəngin bədii proqram olacaq.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Türkiyədəki səfirliyi festival çərçivəsində "Azərbaycan otağı" qurub. Burada Azərbaycanın zəngin mədəniyyəti, tarixi, incəsənəti təbliğ olunur. Böyük maraqla qarşılanan "Azərbaycan otağı" ziyarətçilərin tükənməz sevgisini qazanıb.

Festivalın ilk günlərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Qars, Ərdahan, İqdır və Adananı təmsil edən ayrı-ayrı qurumlar tərəfindən mədəniyyət proqramları təşkil olunub. Festival sentyabrın 4-dək Türk Bəyləri Kənd Meydanında davam edəcək.

# Baş Prokurorluğun vəsatətləri ilə iki ölkə vətəndaşı Rusiyadan Azərbaycana ekstradisiya olunub




**"Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 1993-cü il 22 yanvar tarixli Konvensiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Baş Prokurorluğunun ölkə vətəndaşları Mütəllimov Loğman Gülağa oğlu və İbrahimzadə Ruslan Rəhman oğlunun ekstradisiyası haqqında vəsatətləri Rusiya Federasiyasının Baş Prokurorluğu tərəfindən təmin edilib.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Şirvan Şəhər Polis İdarəsinin icraatında olan cinayət işi üzrə Loğman Mütəllimovun qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən oğurluq, Bakı şəhəri Nizami Rayon Polis İdarəsinin icraatında olan cinayət işi üzrə isə Ruslan İbrahimzadənin xeyli miqdarda ziyan vurmaqla təkrarən dələduzluq cinayətini törətmələrinə dair əsaslı şübhələr müəyyən edilib və həmin şəxslərin barəsində həbs qətimkan tədbiri seçilməklə axtarış elan olunub.

Hər iki şəxs Rusiya Federasiyası ərazisində müəyyən edilərək saxlanılıblar.

Bu il sentyabrın 1-də Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Loğman Mütəllimov və Ruslan İbrahimzadə Rusiyadan Azərbaycana gətiriliblər.





## OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# Genetik tibb sahəsində elmi inqilab

## Dohada yaradılan mərkəz futbol üzrə dünya çempionatında da mühüm rol oynayacaq

**2007-ci ildə "Aspetar" klinikasının açılışından bəri dünyanın idman ulduzları Qətərin paytaxtı Dohadakı idman şəhərciyinin mərkəzində müalicə alırlar. İndi "Aspetar" bütün dünyada tibbi tədqiqatlar və texnologiya üzrə aparıcı mərkəz kimi tanınır.**



Burada xəstələr üçün müxtəlif tibbi prosedurlar nəzərdə tutulur: əzələ hərəkətlərinin öyrənilməsi, hidroterapiya, fizioterapiya və reabilitasiya. Cərrahiyyə və stomatologiya şöbələri və idman zalı da var.

Pasiyentlərlə əlaqələr şöbəsinin rəhbəri Camal Kanci deyib ki, bu tibb ocağı xüsusi olaraq peşəkar idmançılar üçün nəzərdə tutulub. Peşəkar idmançılar "Aspetar"da müalicə olunurlar. Onlar burada özlərini evlərindəki kimi hiss edirlər. Burada idman salonu var. Ona görə də klinikanı gəzsən, belə qənaətə gələrsən ki, klinika xəstəxanadan çox idman mərkəzinə bənzəyir.

### Dəqiq tibbin inkişafı

Bu mərkəzdə yaradılan biobank genetik tibb sahəsində elmi inqilab hesab edilir. Biobankın məqsədi tibb mütəxəssislərini xəstəyə fərdi yanaşma üçün bütün lazımi məlumatlarla təmin etməkdir. Məqsəd klinikanın sakinlərini diabet və ürək pozuntuları kimi ciddi xəstəliklərdən qorumaqdır.

Biobank 2012-ci ildə xərçəngin müxtəlif növlərindən tutmuş piylənməyə qədər geniş yayılmış ağır xəstəliklərə qarşı mübarizə aparmaq üçün yaradılmışdır. Pasiyentlər anketləri doldurur, sonra qan nümunələrini və digər DNT materiallarını verirlər. Onlar beş ildir ki, müşahidə altındadırlar. Bu, həkimlərə profilaktik tədbirlərin effektivliyini qiymətləndirməyə imkan verir.

Qətər biobankının direktoru Nəhla Afifinin sözlərinə görə, bu həm də həkim və patoloqoanatomlara dəqiq diaqnoz qoymağa imkan yaradır.

Biobank daha bir elmi layihənin həyata keçirilməsində - bütün dünyada tibbi inkişafın istiqamətini dəyişəcək genomun deşifrə edilməsində mühüm rol oynayır. Qətər Genom Proqramı (QGP) çərçivəsində artıq ölkənin sakinlərinin 32 000 genomundan 30 mininin şifrəsi açılıb.

Genomun deşifrə edilməsi pasiyentin müəyyən xəstəliklərə meylini təyin etməyə imkan verir. Qətərin bütün əhalisini əhatə edən böyük həcmdə məlumat müəyyən genlər və xəstəliklər arasında səbəb-nəticə əlaqəsini aşkar etməyə imkan yaradır.

KGP-nin direktoru Səid İsmayıl Yer üzündə mümkün qədər çox insanı əhatə edən genom məlumatının əhəmiyyətini vurğulayaraq deyir ki, indiyədək məlumatların 95 faizdən çoxu Qərbi Avropa və Şimali Amerikada götürülüb. Özü də ancaq ağdərili avropalılardan. Biz dünyadakı bütün insan qruplarının nümayəndələrini öyrənməyənə qədər insan genomunu anlamaqdan danışa bilmərik.

KGP həmçinin uşaqlar üçün genomlar haqqında çox maraqlı dərslər də verir. Məqsəd Qətərdə genetiklərin yeni nəslinin meydana çıxmasına təkan verməkdir. Bu dərslər onları təkcə elmi karyera seçməyə sövq etmək deyil, həm də pasiyentin ətrafında qurulacaq gələcəyin təbabətinə hazırlamaqdır.

### Gələcək perspektivlər

Ən son tibbi texnologiyaya malik "Aspetar" klinikası bu ilin noyabrında Qətərdə keçiriləcək futbol üzrə dünya çempionatında mühüm rol oynayacaq. Biobank artıq 30 minə yaxın Qətər vətəndaşının biomateriallarını toplayıb, lakin proqram 2300000 nəfər üçün nəzərdə tutulub. O, genlər və COVID-19 xəstəliyinin ağır dərəcəsi arasında əlaqənin aşkarlanmasında mühüm rol oynayıb.

Bu il KGP Qətərdə genomik tədqiqatları və proqnozlaşdırıcı diaqnostikanı daha da sürətləndirmək üçün "Thermo Fisher Scientific" şirkəti ilə tərəfdaşlıq elan edib.

Hazırda Qətərdə o cümlədən idman təbabəti və genetika sahələrində aparılan elmi araşdırmaların uzunmüddətli nəticələri və insanların həyatına faydalı təsirləri olacağı şübhəsizdir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*








BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6461
Sifariş 2452
Qiyməti 40 qəpik